www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 avqust 2025-ci il Çərşənbə № 141 (8751) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda Rusiyanın iqtisadi sanksiyalarına hazırlıq

yazısı səh.12-də

# ABŞ İLƏ İMZALANAN XARTİYA - NATO BAZALARI YALANI

Bakı ilə əldə olunan strateji tərəfdaşlıq sənədi Moskvanı narahat edir - Kremlin iki adamından isterik reaksiya

yazısı səh.4-də

**Gündəm**

### Bu ay İranla yenə müharibə başlayacaq



ABŞ jurnalından sensasion iddia

yazısı səh.7-də

### Ukraynaya silah, yoxsa humanitar yardım?

yazısı səh.7-də

### "3+3" regional formatının sonu

yazısı səh.8-də

### İrəvana "ev tapşırığı"- sərhəd kəşfiyyatçıları evlərinə qayıdır

yazısı səh.9-da

### Çaqqal hücumları niyə artıb?

yazısı səh.3-də

### Ermənistanı üç gün iki nəfər idarə edəcək

yazısı səh.4-də

### Sülh müqaviləsində əsas öhdəliklər

yazısı səh.5-də

### "Zəngəzur zorla ələ keçiriləcək" uydurması

yazısı səh.6-da

### Avropa Şurasının Azərbaycan həbsxanaları hesabatı

yazısı səh.11-də

### Blogerlər vergiyə necə cəlb olunur?

yazısı səh.14-də

### Çinin "Tramp yolu"na susqunluğunun iki səbəbi

yazısı səh.9-da

### 75 minə yaxın müəllimin maaşı artacaq

yazısı səh.2-də



# Qəbul imtahanlarında daha bir "ÇP"

İmtahanlarda texnoloji fırıldaqlıq və ya yeni dövrün "şparqalka" problemi...

yazısı səh.10-da



### Ağsuda tapılan doğranmış cəsədin "sirri"

yazısı səh.13-də



### Paşinyanın anonsu: Naxçıvana 1 yox, 9 kənd qaytarmalı...

yazısı səh.5-də



### Kürdə "dəlilik qalmadı"- kritik vəziyyət- professorun şərhi

yazısı səh.3-də



## Bayram Beqay İlham Əliyevə zəng edib

**Avqustun 12-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bayram Beqay Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, həmçinin ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin və digər sənədlərin imzalanması ilə bağlı dövlətimizin başçısını təbrik edib. O, bu prosesdə nümayiş etdirdiyi əzmə və liderliyə görə Azərbaycan Prezidentinin rolunu xüsusi vurğulayıb. Eyni zamanda Bayram Beqay ABŞ Prezidentinin prosesə verdiyi dəstəyi yüksək qiymətləndirib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı regionda sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin də məhz Azərbaycan olduğunu vurğulayıb, Vaşinqtonda keçirilmiş görüş əsnasında qəbul edilmiş sənədlərin sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxunub. Prezident İlham Əliyev bu prosesə göstərdiyi dəstəyə görə ABŞ Prezidentinin rolunu qeyd edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Albaniyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və qarşılıqlı dəstəyi yüksək qiymətləndirilib.

## “AzəriLayt” bu ay nə qədər ucuzlaşıb?

**Avqustun 12-də “AzəriLayt” markalı Azərbaycan neftinin barreli 67,98 dollara satılır. Bu, ayın start qiymətindən 4,72 dollar aşağı göstəricidir.**

2025-ci ilin dövlət büdcəsində bir barrel neft 70 dollardan götürülüb. “AzəriLayt” yanvara 79, fevrala 78,52, marta 75,68, aprelə 78,29, maya 65,13, iyuna 68,82, iyula 72,01, avqusta 72,70 dollarla başlayıb.

İxracatçıların OPEK+ koalisiyası Azərbaycan üçün xam neftin gündəlik hasilat normasını 551 min barrel müəyyən edib.

## 125 min uşağın birinci sinfə qəbulu tamamlanıb

**Yeni ildə tədris ili üzrə indiyədək 125 min uşağın birinci sinfə qəbulu tamamlanıb.**

“Report” ttps://report.az/elm-ve-tehsil-xeberleri/yeni-ilde-ted-ris-ili-ucun-125-min-usagin-birinci-sinfe-qebulu-tamamla nib/ xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) məlumat yayıb.

Bildirilib ki, proses ilkin mərhələdə Bakı və digər regionlarda prioritet tətbiq olunmaqla həyata keçirilib.

Hazırda hər bir kəs mektebeqebul.edu.az platformasına daxil olmaqla seçdikləri məktəb və müəllim üzrə, boş yer olduğu təqdirdə, tədris Azərbaycan və digər dillərdə aparılan ümumtəhsil müəssisələrinə sorğularını yerləşdirə bilər.

Qeyd edək ki, 2025-2026-cı tədris ili üzrə uşaqların 1-ci sinfə qəbul prosesinə mayın 6-da start verilib və proses 12 sentyabra qədər davam edəcək.

## Naxçıvanda vətəndaşlara nə qədər ƏDV qaytarılıb?

**Bu ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasında pərakəndə ticarət və yaxud ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdiyi tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 984,8 min manatlıq hissəsi fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 23 % çoxdur. İndiyə qədər vətəndaşlara geri qaytarılan ƏDV-nin ümumi məbləği isə 3,3 milyon manata yaxınlaşıb.

# 75 minə yaxın müəllimin maaşı artacaq



**Bu il 75 minə yaxın müəllim sertifikatlaşdırmadan uğurla keçib və əməkhaqqını əlavələrlə alacaq.**

Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) məlumat yayıb.

Məlumata əsasən, 2025-ci il üçün təşkil olunmuş sertifikatlaşdırılma prosesində 21 minə yaxın kimya, biologiya, fizika, coğrafiya, informatika fənlərini tədris edən təhsilverənlər, eyni zamanda ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, fransız dili və s.) müəllimləri iştirak edib.

Test imtahan mərhələsində 6 min 600 təhsilverən 51 bal və daha yuxarı, 11 min 318 təhsilverən isə 30 bal və daha yuxarı nəticə göstərib.

Qeyd edilib ki, sertifikatlaşdırma prosesinin növbəti mərhələsi, yəni müsahibə mərhələsinə artıq avqust ayının sonlarından etibarən başlayacaq. İlk növbədə təkrar sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsində uğur qazanan müəllimlər üçün müsahibələr təşkil olunacaq. Təkrar sertifikatlaşdırma üzrə 1400-dən artıq müəllimin müsahibə mərhələsində iştirakı nəzərdə tutulub.



## Bakıda bu gün hava kəskin dəyişəcək

**Bakıda və Abşeron yarımadasında avqustun 13-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, avqustun 12-dən 13-nə keçən gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**

Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-24, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80%, gündüz 45-55% təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-24, gündüz 30-35, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacaq.

## Xəzəryanı ölkələrin sammiti Tehranda keçiriləcək



**Xəzəryanı dövlətlərin sammiti 2026-cı ilin avqustunda Tehranda keçiriləcək.**

“Report” ttps://report.az/region-xeberleri/xezeryani-olkelerin-sammiti-2026-ci-ilde-tehranda-kecirilecek/un Rusiya KİV-lərinə istinadən məlumatına görə, bu barədə İranın Türkmənistandakı səfiri Əli Mojtaba Ruzbehani bildirib.

“Məmnuniyyətlə bildirirəm ki, İran İslam Respublikası 2026-cı ilin avqustunda 7-ci Xəzəryanı dövlətlər sammitinə ev sahibliyi edəcək. Ümid edirik ki, Beynəlxalq Xəzər Dənizi Günündə və Tehran Konvensiyasının qüvvəyə minməsinin 20-ci ildönümündə Tehranda Xəzəryanı dövlətlərin prezidentlərini qürurla qəbul edəcəyik”, - deyə o bildirib.

Ruzbehani əlavə edib ki, İran həmçinin 2025-ci ildə Xəzər dənizi sahilyanı əyalətlərinin qubernatorlarının ilk beynəlxalq görüşünü keçirmək niyyətindədir. Onun sözlərinə görə, bu görüşün keçirilməsinin məqsədi Xəzəryanı əyalətlərin rəhbərliyi səviyyəsində dialoq, təcrübə mübadiləsi və qarşılıqlı əlaqə üçün davamlı platforma təmin etmək, əyalətlərin potensialından istifadə etməklə iqtisadi və regional diplomatiyanı gücləndirmək, Xəzər dənizi hövzəsinin qonşu əyalətləri arasında sərhədyanı əməkdaşlıq imkanlarını müəyyən etmək, həmçinin birgə layihələri həyata keçirməkdir.

“Görüşün dəvətnaməsi və proqramı yaxın vaxtlarda bütün Xəzəryanı ölkələrə göndəriləcək”, - deyə diplomat dəqiqləşdirib.




## Xanım deputat təltif edildi

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təltif edilib.**

Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Hicran Kamran qızı Hüseynova 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub.

Qeyd edək ki, Hicran Hüseynova sabah 70 yaşını qeyd edir.

## Şabrandakı yanğına görə 2 nəfər tutuldu

**Avqustun 4-də və 10-da Şabran rayonunun müxtəlif ərazilərində biçilmiş taxıl sahələrinin qəsdən yandırılması ilə bağlı polis əməkdaşları tərəfindən iki nəfər müəyyən olunaraq saxlanılıb.**

Araşdırmalarla bu qanunsuz əməllərin rayon sakinləri Ağaməmməd Heydərov və Abdulla Abdullayev tərəfindən törədildiyi məlum olub. Onlar biçilmiş əkin sahələrini yandırdığına görə alov nəzarətdən çıxaraq daha geniş ərazilərə yayılıb.

Saxlanılan hər iki şəxs məsuliyyətə cəlb olunub.




## Bakıda iki xəstəxanaya yeni direktor təyin edildi

**Xəzər və Suraxanı tibb mərkəzlərinə yeni direktorlar təyin olunub. Bu barədə TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov əmr imzalayıb. Onun təqdimatı ilə Xəzər Tibb Mərkəzinə Mübariz Ağayev, Suraxanı Tibb Mərkəzinə isə Tərlan Bəbirov rəhbərlik edəcək.**

Xəzər Tibb Mərkəzinin direktoru vəzifəsini icra edəcək M.Ağayev ixtisasca pediatrdır və yeni təyinata qədər TƏBİB-də İxtisaslı tibbi xidmətin təşkili departamentinin Tibbi koordinasiya şöbəsinin müdiri vəzifəsində çalışıb.

Suraxanı Tibb Mərkəzinin direktoru vəzifəsini icra edəcək T.Bəbirov ixtisasca pediatrdır və yeni təyinatadək Xəzər Tibb Mərkəzinin direktoru vəzifəsində çalışıb.

YENİ MÜSAVAT
N 141 (8751) 13 avqust 2025



# Kürdə "dəlilik qalmadı"- kritik vəziyyət

## Professor: "Xəzərin səviyyəsinin dəyişməsi və Kür çayının vəziyyəti ilə bağlı monitorinqlər mütəmadi aparılmalıdır"

**Dənizə tökülən çayların ekosistemləri də iqlim dəyişmələrinin təsiri ilə diferensial pozulmalara məruz qalıb. Ən kritik vəziyyət isə hazırda Kür çayında müşahidə olunur. Bu, Coğrafiya İnstitutunun Xəzər dənizində su səviyyəsini və sahilboyu ərazilərdə landşaft-ekoloji şəraitdə baş verən dəyişiklikləri tədqiq etmək məqsədilə apardığı ekspedisiya zamanı məlum olub. Təhlillərə görə, sahilboyu ərazilərin geomorfoloji quruluşundan asılı olaraq, dəniz səviyyəsinin aşağı düşməsi nəticəsində sahil xəttinin geri çəkilməsi müxtəlif intensivlikdə baş verir. Astara şəhərindən Göyşaban məntəqəsinə qədər sahillərin geri çəkilməsi daha zəif olmuş və 40-50 metrdən 200-300 metrə qədər dəyişib.**

Qeyd edilib ki, ən güclü sahil gerilməsi Qızılağac körfəzi rayonunda müşahidə edilib. Burada sahillər ildə orta hesabla 250-300 metr geri çəkilib və geniş ərazilərdə ekosistemlər kontinental rejimə keçib. Bu ərazilərdə dəniz sahilindən qurunun içərilərinə doğru ətli-şorangəli və şoranotlu yarımsəhralar tədricən lığvərli və yulğunlu ekosistemlərlə əvəz olunmağa başlayıb.

Sara adası şərqə doğru 2,5 km genişlənmiş, Bala Qızılağac körfəzinin isə səthinin yarıdan çoxu yosunlarla örtülüb, nəticədə suyun keyfiyyəti dəniz canlılarının inkişafı üçün yararsız hala düşüb və akval ekosistem pozulub. Neftçala-Ələt sahillərində isə ən kəskin landşaft-ekoloji dəyişikliklər Qoltuq körfəzində müşahidə olunub və dəniz burada 1,5-2 km geri çəkilib.

Kür-Araz düzənliyində 1986-2021-ci illər ərzində torpağın duzlaşma prosesini proqnozlaşdırmaq üçün Landsat peyk məlumatlarından istifadə olunub. Həmçinin su hərəkəti və duzluluğun daşınması modelləri hazırlanıb və iqlim dəyişikliyi ilə su idarəçiliyinin təsirləri hesablanıb.

Model nəticələri göstərib ki, yağıntıların və drenajın artması torpağın duzluluğunun ciddi şəkildə azalmasına və kənd təsərrüfatı məhsuldarlığının yüksəlməsinə səbəb olub. Bu dəyişikliklər iqlim dəyişikliyi ilə su idarəçiliyi arasında yaranan sinergetik effektlə bağlıdır.

Gələcək proqnozlara görə, Xəzər dənizi ətrafında buxarlanmanın azalması nəticəsində yağıntılar azalacaq, bu da torpaqda yenidən duzlaşma (re-salinization) prosesini sürətləndirəcək. Torpağın təkrar duzlaşması Azərbaycanın və qonşu ölkələrin kənd təsərrüfatı sənayesinin və ərzaq təhlükəsizliyinin davamlılığı üçün ciddi təhlükə ola bilər.

İqtisadi coğrafiya üzrə mütəxəssis, Bakı Dövlət Universitetinin professoru **Çingiz İsmayılov** "Yeni Müsavat"a verdiyi açıqlamada Xəzər dənizində gedən təbii proseslərin və çay ehtiyatlarının monitorinqinin əhəmiyyətindən danışıb. Onun fikrincə, bu kimi çöl ekspedisiyalarının keçirilməsi təkcə ildə bir dəfə deyil, hər mövsümdə - dörd dəfə həyata keçirilməlidir: "Çünki bu proseslər sahil ərazilərinin, landşaftın, sahil xəttinin və ümumi konfiqurasiyanın dəyişməsi ilə müşayiət olunur. Bu dəyişikliklərin təhlili üçün davamlı məlumat toplanmalı və nəticə etibarilə ümumi mənzərə, meyillər və trendlər müəyyən edilməlidir".

Professor qeyd edir ki, Xəzər dənizinin səviyyəsinin enməsi növbəti bir mərhələdir və bu təbii proses dövri xarakter daşıyır: "Xəzərdə səviyyənin qalxıb-enməsi daim baş verir və bu proses təxminən 35-40 illik dövrlərlə təkrarlanır. Hazırda səviyyənin aşağı düşməsi dövrünü yaşayırıq. Bu prosesə həm iqlim dəyişikliyi (istiləşmə), həm də su ehtiyatlarından artan istifadə təsir edir. Xüsusilə Volqa çayında suya olan tələbat artır, çünki kənd təsərrüfatı inkişaf edir. Bu baxımdan su balansına ciddi nəzarət olunmalı, çaylara daxil olan su miqdarı və onun istifadəsi mütəmadi monitorinqə cəlb edilməlidir".

Çingiz İsmayılov eyni zamanda Azərbaycanın əsas su arteriyası olan Kür çayının strateji əhəmiyyətinə də diqqət çəkib: "Kür çayı Azərbaycan ərazisindən keçən əsas su mənbəyidir. Aran bölgəsi, demək olar ki, tamamilə əkinçilik və kənd təsərrüfatı sahələrini bu çayın, həmçinin qismən Araz çayının suları hesabına inkişaf etdirir. Buna görə də su ehtiyatlarının səmərəli istifadəsinə ciddi nəzarət olunmalıdır. Gürcüstan və ondan əvvəl Türkiyə ərazisindən gələn suların Azərbaycanda idarə olunması nəzarət altında saxlanılmalıdır".

Professor suvarmada müasir texnologiyaların tətbiqini zəruri hesab edir: "Suvarmada damla üsulu kimi müasir texnologiyalar daha geniş tətbiq olunmalıdır. Digər köhnə suvarma üsullarından az istifadə edilməlidir. Su ehtiyatlarının ölkə daxilində idarə olunması daha ciddi və elmi əsaslarla aparılmalıdır. Nəzərə alsaq ki, Azərbaycan su çatışmazlığından əziyyət çəkən ölkələr sırasındadır və ərazisinin yarısı quraq və yarımquraq zonalardan ibarətdir, bu məsələlər xüsusilə önəmlidir".

Kür çayının mühafizəsi məsələsinə də toxunan Ç.İsmayılov əlavə edib: "Kür çayı Xəzər dənizinin səviyyəsinin dəyişməsində həlledici rol oynamasa da, sahil ərazilərinə təsiri vardır. Xəzərə daxil olan çay sularının ümumi həcmi içərisində Kür çayının xüsusi çəkisi təxminən 2 faizdir ki, bu da olduqca cüzi göstəricidir. Buna baxmayaraq, biz bu su ehtiyatlarını daha səmərəli şəkildə idarə etməliyik ki, çayın quruma prosesi minimuma ensin. Bunun üçün həm su kanalları müasirləşdirilməli, həm də ümumi idarəetmə mexanizmləri təkmilləşdirilməlidir".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

## Çaqqal hücumları niyə artıb?

### Mütəxəssis qənaətinə görə, çaqqallar insanların deyil, əksinə, insanlar onların ərazilərinə müdaxilə edirlər



**Son günlərdə ölkənin bir neçə rayonunda qeydə alınan çaqqal hücumları əhalinin ciddi narahatlığına səbəb olub. Yırtıcı olsalar da, adətən insanlardan hürkən bu heyvanlar əvvəllər dağlıq, meşəlik, çöllük ərazilərdə müşahidə olunurdusa, indi kəndlərdə görünməyə başlayıblar. İlk olaraq havaların həddən artıq isti keçməsi, qida, su çatışmazlığı ağla gəlsə də, səbəb əslində bu deyilmiş.**

Mütəxəssis qənaətinə görə, çaqqallar insanların deyil, əksinə, insanlar onların ərazilərinə müdaxilə edirlər.

**Zooloq Təvəkkül İsgəndərov** "bizim.media"ya bildirib ki, son günlərdə çaqqalların insanlara hücumlarının artmasının əsas səbəbi, insanların onların ərazisində məskunlaşmasıdır.

Ona görə də bu yırtıcılar rastlaşdıqları ilk adamlara qəzəblərini dişləməklə göstərirlər. "Çaqqallar pusqu qurub insanları güdmür, onlara hücum çəkmir, sadəcə, təhlükə hiss edəndə fəallaşırlar. Adətən dağlıq ərazilərdə, meşə kənarında, kolluq ərazilərdə, mağaralarda, ağac koğuşlarında, ən ağlasığmaz yerlərdə yaşayırlar. Bəzən özləri də dərin yuva qazıb orada gizlənirlər. Yalnız axşam, xüsusilə alatoranlıqda qidalanma və nəsil vermək üçün çölə çıxırlar.

Çaqqal hər nə qədər yırtıcı heyvan olsa da, digərləri ilə müqayisədə dincdir, amma qəzəbə qarşı qəzəblə də cavab verir. Başqa sözlə desək, çaqqal əslində hücum etmir, müdafiə olunur", - deyə o, vurğulayıb.

Mütəxəssis diqqətə çatdırır ki, insan çaqqallar üçün yem olaraq və ya təmas kimi maraqlı deyil.

Hətta insandan mümkün qədər uzaq gəzərlər.

Sadəcə, son vaxtlar insanlar bilərəkdən, ya bilməyərəkdən çaqqalların məskən saldığı yerlərə yaxın ev tikir, təsərrüfat qurur və ya gəzintiyə çıxırlar:

"Yenə də hücum çəkəcək qədər aqressiv olmurlar, ta ki, bala verənə qədər.

Bu mövsüm də balalama vaxtı olduğu üçün dişi çaqqallar insanlara və heyvanlara qarşı marıqda olurlar, təhlükəyə qarşı həssaslıqları daha da artır".

## Masazırda 2 yaşlı uşağı it dişlədi



**Abşeron rayonu Masazır qəsəbəsi, Məcburi köçkünlər şəhərciyində 2 yaş 9 aylıq uşağı it dişləyib.**

Bu barədə "Qafqazinfo"ya onun valideynləri məlumat verib. Bildiriblər ki, azyaşlı anası ilə birlikdə həyətdə gəzərkən sahibsiz itlər ona hücum edib. Ətrafdakıların köməkliyi ilə uşağı xilas etmək mümkün olsa da, o, xəsarət alıb.

Xəstəxanaya çatdırılan azyaşlıya quduzluq əleyhinə vaksin vurulub, ilkin yardım göstərildikdən sonra evə buraxılıb, hazırda vəziyyəti kafidir.

Yaxınlarının sözlərinə görə, uşağa hücum edən it bir müddət sonra ölüb, bu da onun quduz olması anlamına gəlir. Qonşuların bildirdiyinə görə, bu ərazidə sahibsiz itlər olduqca çoxdur. Oxşar hadisələr də tez-tez baş verir. Bu səbəbdən də uşaqlar həyətə çıxıb oynaya bilmirlər. Sakinlərin sözlərinə görə, aidiyyəti qurumlara dəfələrlə müraciət etsələr də, heç bir tədbir görülmür.

# ABŞ ilə imzalanan xartiya - NATO bazaları yalanı

## Bakı ilə əldə olunan strateji tərəfdaşlıq sənədi Moskvanı narahat edir - Kremlin iki adamından isterik reaksiya

**Azərbaycan və ABŞ hökumətləri arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb. Sənəd iki ölkə arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığı daha da gücləndirməyi hədəfləyir.**

Anlaşma Memorandumu Azərbaycan-ABŞ strateji tərəfdaşlığın üç istiqamətini əhatə edir:

- Enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar;
- Süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə;
- Müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq.

Yaradılacaq Strateji İşçi Qrupu regional bağlantılar infrastrukturunun və enerji sahəsində sərmayələrin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilədilməsi, həmçinin süni intellektin inkişafı kimi vacib məsələlərlə məşğul olacaq.

Bakı ilə Vaşinqton arasında strateji tərəfdaşlıq xartiyası bir neçə ay ərzində hazırlanacaq. Dövlət başçısı deyib ki, Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Prezident vurğulayıb ki, dünyanın ən böyük ölkəsi ilə strateji tərəfdaşlıq formatında əməkdaşlıq həm böyük imkan, həm də ciddi məsuliyyətdir.

Ermənistan indiyə kimi bölgədə ABŞ ilə Strateji tərəfdaşlıq Xartiyası imzalamış tək ölkə olması ilə öyünürdü, bu gün isə vəziyyət tamamilə dəyişib və Azərbaycan ABŞ-nin strateji tərəfdaşı kimi təsdiqlənib. Əlbəttə, bu da Ermənistana ən tutarlı cavabdır.

Prezident İlham Əliyev Bayden dövründə kənar təsirlər altında Azərbaycanda uzaqlaşan ABŞ-ni Tramp administrasiyasının hakimiyyətdə olduğu qısa müddətdə - cəmi 6 ayda Bakıya yaxın qonşu edir. Bu mənada Strateji Tərəfdaşlıq Xartiyasının bu münasibətlərin daha da inkişaf etdirilməsində xüsusi təsirləri olacaq.

Rusiyalı təbliğatçı Vladimir Solovyov Vaşinqton razılaşmalarını şərh edərkən Cənubi Qafqazı yeni "Xüsusi Hərbi Əməliyyat"la təhdid edib. "Biz başa düşməliyik ki, Cənubi Qafqazda baş verənlər çox böyük problemdir və Xəzər tezliklə orada NATO bazalarının görünə biləcəyi vəziyyətə düşə bilər. Ona görə də burada bütün mümkün diplomatiya üsullarını daxil etməliyik ki, Rusiyanın maraqlarına hörmətlə yanaşsınlar".

Bəllidir ki, Bayden administrasiyası gethagetdə İrəvanla da eyni məzmunda xartiya imzalayıb. Yeni Solovyovun narahatlığı təkcə Azərbaycanla bağlı imzalanmış xartiya ilə bağlı deyil. Ümumiyyətlə, ABŞ-nin Cənubi Qafqazda təsirlərinin artması Rusiyanı narazı salır. Çünki Ruisya hər zaman regiona özünün "arxa bağçası" kimi baxıb.

Yeri gəlmişkən, yalnız Solovyov deyil, Kremlin əsas ideoloqlarından olan avrasiyaçı alim Aleksandr Duqin də həyəcanını gizlədə bilməyib. "Azərbaycan və Ermənistan arasında Vaşinqtonda bağlanmış sülh sazişi Rusiyanın Cənubi Qafqazdakı siyasətinin iflasıdır. Rusiya regionda nüfuzunu itirib, günahkarlar isə cəzasız qalır. Səhvləri etiraf etmək və böyük dövlət statusunu "bərpa etmək" vaxtıdır". Rusiyanın milli siyasətinin memarlarından sayılan Duqin belə deyib.



Onun sözlərinə görə, bu müqavilə Rusiyanın gücsüzlüyünün sübutudur: "Biz artıq postsovet məkanına da nəzarət etmirik. Əgər burada bizə hörmət edilməsə, dünya səhnəsində bizimlə kim hesablaşacaq? Bu, sadəcə olaraq, məğlubiyyət deyil, hər bir rusun üzünə vurulan sillədir. Paşinyanı və Əliyevi günahlandırmaqla özünüzə haqq qazandıra bilməzsiniz.

Etiraf etməliyik ki, biz uduzduq, çünki danışıqları düzgün adamlara həvalə etmədik. Əgər bunu alçaldıcı hal kimi qəbul etməsək, suveren sivilizasiya olmaqdan çıxacağıq. Günahkar cavab verməlidir. Ya biz öz maraqlarını müdafiə etməyə qadir olan imperiyayıq, ya da müttəfiqlərimizin bizə xəyanətini seyr etməkdən utanıb istefa verəcəyik. Ədalət olmasa, gələcəyimiz də yoxdur".

**Hərbi ekspert Ramil Məmmədli** "Yeni Müsavat"a bildirib ki, memorandumda təhlükəsizlik sahəsində əməkdaşlıq qeyd olunub. Onun fikrincə, bu razılaşmanı Azərbaycanın Şimali Atlantika Alyansına üzvlük hazırlığı kimi qiymətləndirmək olmaz. "Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür və bizim hər hansı hərbi blokda iştirak niyyətimiz yoxdur. Ona görə də Azərbaycan ərazisində hər hansı dövlətin hərbi bazası yaradıla bilməz. Buna ehtiyac da hiss etmirik. Azərbaycanın Türkiyə ilə Şuşa bəyannaməsi hərbi bazanın olması qədər ali razılaşmadır. Pakistan kimi nüvəsi olan dövlətlə müttəfiqliyimiz var. Ən əsası isə sülh mətnində Azərbaycan və Ermənistan güc tətbiqindən imtina ediblər, sərhəddə üçüncü qüvvənin yerləşməməsinə də razılaşıblar. Yəni bundan sonra müharibə istisna edilirsə, ABŞ, yaxud başqa dövlətin ərazimizdə hərbi bazası lazımsızdır", - deyə hərbi ekspert vurğulayıb.

Hərbi təhlilçi qeyd edib ki, ABŞ ilə Azərbaycan arasında əməkdaşlıq müxtəlif sahələri əhatə edəcək, onlardan biri də təhlükəsizlik məsələsidir. Onun sözlərinə görə, Rusiya Cənubi Qafqazda Qərbin təsirlərinin artmasından narahatdır və Solovyovun, eləcə də digər təbliğatçıların çıxışları da həmin həyəcandan irəli gəlir. R.Məmmədli əlavə edib ki, bölgə üçün heç də asan dövr gəlmir və strateji rəqabət daha da dərinləşəcək, bu da təhlükəsizliyin dayanıqlı olmasını kövrək edir.

**Professor Elxan Mirzəyev** isə "Yeni Müsavat"a imzalanan memorandumu çoxşaxəli xarici siyasətin bir nümunəsi adlandırıb: "Azərbaycan Rusiya ilə də strateji müttəfiqlik bəyannaməsi imzalayıb, sadəcə, Moskva özünü dost kimi aparmır. Bizim Çinlə də strateji tərəfdaşlıq sənədimiz var. Azərbaycan regionun inkişafında maraqlıdır. Ona görə Moskva güzgüyə baxmalı, günahı özündə axtarmalıdır ki, regiondan kənar dövlətlərin bölgədə təsirləri niyə artır. Əslində bu xartiya Ermənistanla imzalananda Rusiya daha sərt reaksiya verməliydi. Çünki Ermənistan KTMT üzvüdür, Rusiyanın orada iki hərbi bazası yerləşir, dəmiryolları onun mülkiyyətindədir, sərhədlərini rus əsgərləri mühafizə edir. Ona görə də Moskva İrəvandan izahat istəyə bilərdi".

E.Mirzəyev hesab edir ki, Azərbaycan ABŞ ilə 30 ildən artıq əlaqələrə malikdir, beynəlxalq terrorizmlə mübarizədə ortaq olmuşuq, yəni əlaqələr daha çox inkişaf edə bilərdi, sadəcə, Bayden iqtidarı tormozlamışdı.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## "Onlar yaxşı dostlarım oldular"-Tramp

**"Mənim üçün böyük şərəfdir ki, Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycanın Prezidenti İlham Əliyevlə birlikdə onilliklər davam edən müharibə və ölümdən sonra Sülh imzaladıq". Bunu ABŞ Prezidenti Donald Tramp özünün "Truth Social" hesabında yazıb.**

"Onlar iki möhtəşəm insan və böyük liderdirlər. İndi isə mənim yaxşı dostlarım oldular!", - deyə o qeyd edib.

Xatırladaq ki, avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Vaşinqtonda keçirilən üçtərəfli görüşün yekunları üzrə birgə bəyannamə imzalayıblar.

Bəyannamədə qeyd olunur ki, tərəflər Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması və münasibətlərin bərpası haqqında sazişin əvvəllər razılaşdırılmış mətnini paraflayıb, həmçinin kommunikasiyaların bloklanmasına dair memorandum imzalayıblar.

## Ermənistanı üç gün iki nəfər idarə edəcək


Mqer Qriqoryan

**Ermənistan baş naziri Nikol Paşinyan avqustun 12-dən 15-nə kimi məzuniyyətdə olacaq. Bu barədə Ermənistan hökuməti məlumat yayıb.**

Məzuniyyət müddətində Ermənistan baş nazirinin səlahiyyətlərini 12-13 avqustda baş nazirin müavini Mqer Qriqoryan, 14-15 avqustda isə baş nazirin müavini Tiqran Xaçaturryan icra edəcək.

İyulun 28-də baş nazirin dəftərxanası Nikol Paşinyanın 28 iyul - 15 avqust tarixlərində məzuniyyətdə olacağını açıqlayıb. Amma məzuniyyət zamanı baş nazir Nikol Paşinyanı əvəzləyən baş nazirin müavini Mqer Qriqoryanın qərarı ilə avqustun 5-dən etibarən baş nazir məzuniyyətdən geri çağırılıb. Avqustun 7-də baş nazirin rəhbərlik etdiyi nümayəndə heyəti Vaşinqtona yola düşüb. Səfər zamanı Ermənistan və ABŞ arasında ikitərəfli memorandumlar, həmçinin Ermənistan, Azərbaycan və ABŞ arasında üçtərəfli bəyannamə imzalanıb.



## Putinlə görüş günü ABŞ hava məkanını bağlayır

**ABŞ avqustun 15-də Donald Tramp və Vladimir Putin arasında planlaşdırılan görüş günü Alyaskanın Ankoric şəhəri üzərində hava məkanını bağlayacaq. Bu barədə Federal Aviasiya Administrasiyasından məlumat verilib. Məlumata görə, 48,3 km radiusda və 5,5 km hündürlükdə uçuşlar qadağan ediləcək.**

Məhdudiyyətlər avqustun 16-na kimi davam edəcək.

# Paşinyanın anonsu - Naxçıvana 1 yox, 9 kənd qaytarmalı...

## Sərhədlərin tanınması üçün kəndlərimiz qaytarılacaq?




**"Amerikada aparılan danışıqlardan sonra Ermənistan baş naziri Nikol Paşinyan müsahibəsində "bəzi ərazilər Azərbaycana qayıtmalıdır" fikri səsləndirib. Onun Qazaxın 3 kəndi ilə yanaşı, Naxçıvanın Kərki kəndini də nəzərdə tutduğunu bizim əksər media yazıb". Bu sözləri tarixçi alim Zaur Əliyev qeyd edib.**

O bildirib ki, təkcə Kərki deyil, Nüvədi başda olmaqla, 1929-cu il fevral ayının 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 9 kəndinin - Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxəç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, az sonra isə Kilit kəndinin torpaqlarının bir hissəsinin əkin sahələri ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul edilib: "O dövrdə Moskva tərəfindən Azərbaycanda həyata keçirilən sərhəd bölgüsü siyasətində birinci yerdə Sovet Rusiyasının iqtisadi maraqları, sonuncu yerdə isə region əhalisinin milli maraqları dayanırdı. 1920-ci ilin noyabrından başlayaraq Azərbaycan əraziləri mərhələ - mərhələ Ermənistan Sovet Respublikasına verilməyə başladı. Azərbaycanın sərhəd bölgələrindən Zəngəzur, Naxçıvan, Gədəbəy, Qazax, Tovuz ərazilərinin bir hissəsi Ermənistanın tərkibinə verildi. Ermənistan SSR Qars müqaviləsinə əsasən Azərbaycan SSR tərkibində Naxçıvanın muxtariyyətini rəsmən tanısa da, öz niyyətindən əl çəkməyib və bir müddət sonra Naxçıvan MSSR torpaqlarının bir hissəsini qopararaq öz ərazisinə birləşdirməyə nail olmuşdu. Məlumat üçün vurğulayım ki, Naxçıvan ilə Ermənistan arasında sərhədlər 1921-ci il Qars müqaviləsi ilə tənzimlənmişdi. Naxçıvan MSSR yaradıldığı vaxt ərazisi Qars müqaviləsinin III əlavəsi əsasında 5 min 988 kvadratkilometr müəyyən edilmişdi. Təxminən 486 kvadratkilometr Naxçıvandan ilk iki ildə Ermənistana verildi. O dövrdə Naxçıvan ərazilərinin Ermənistana verilməsindən nə Azərbaycanın, nə də Türkiyənin xəbəri vardı. Türkiyə bu qərara etiraz notası ilə cavab verdi. Bildirildi ki, Qars müqaviləsi Türkiyə ilə bağlandığına görə, onun müddəaları yerinə yetirilməlidir. Lakin bolşevik Rusiyası buna reaksiya belə vermədi. 1963-cü ildə Naxçıvanın Ermənistana verilməsi barədə hazırlığa başlanıb. Ermənistana verilən sözügedən kəndlərin əhalisi ermənilərə qarşı mübarizə aparıb, kəndləri tərk etmək istəməyib. Lakin qırmızı terror orada repressiyalar həyata keçirəndən sonra ermənilərlə birgə yaşamaq istəməyən naxçıvanlılar dədə-baba torpaqlarını tərk edərək Azərbaycana köçüblər".

**Məsələ ilə bağlı politoloq Oqtay Qasımov** isə "Yeni Müsavat"a bildirdi ki, Nikol Paşinyan "bəzi ərazilər Azərbaycana qaytarılmalıdır" dedikdə əslində 4 kəndimizin qaytarılmasına işarə edib. Bunlar Qazaxın hazırda Ermənistanın işğalı altında olan 3 kəndi və Naxçıvanın Kərki kəndidir: "Sülh müqaviləsi layihəsinin mətnində də qeyd olunur ki, ərazilər Sovet İttifaqı dağılan müddətdə malik olduqları sərhədlər və Alma-Atı bəyannaməsinə istinad edirlər. Bu da o deməkdir ki, SSRİ zamanında Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilmiş Naxçıvanın qeyd olunan 9 kəndi, Zəngilanın kəndləri nəzərə alınmayacaq. Geri qaytarılacağı ehtimal olunanlar Qazaxın Yuxarı Əskipara, Bərxudarlı, Cəfərli kəndləri, Naxçıvanın Kərki kəndidir. Çünki bu kəndlər Qarabağ müharibəsi başlayandan sonra Ermənistan tərəfindən işğal olunmuş anklav kəndlərimizdir".

**Azad Vətən Partiyasının sədri Akif Nağı** isə bildirdi ki, açıqlanan paraflanmış sülh sazişi layihəsində SSRİ dövründəki sərhədlərin qarşılıqlı surətdə tanınmasından söhbət gedir. Azərbaycanın ərazilərinin Moskva tərəfindən 1920-ci ildən başlayaraq zaman-zaman qeyri-qanuni olaraq Ermənistana verilməsi prosesi aparılıb. Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Məsələyə buradan yanaşdıqda Azərbaycanın sərhədləri Xalq Cümhuriyyəti dövründə mövcud olmuş və tanınmış sərhədlər olaraq qəbul edilməli və tanınmalıdır: "Bu halda SSRİ zamanında Ermənistana birləşdirilmiş kəndlərimiz, ərazilərimiz qaytarılmalıdır və sərhədlər tanınmalıdır. SSRİ dövründəki sərhədlər dedikdə isə, 1921-ci il Moskva və Qars müqvaileləri ilə razılaşdırılmış sərhədlər nəzərdə tutulmalıdır. Eyni zamanda 1922-ci il dekabrın 30-da SSRİ-nin yaranması ilə bağlı qəbul olunmuş sənədlərdə əksini tapmış sərhədlər nəzərdə tutulmalıdır. Yəni əgər Azərbaycan və Ermənistan sərhədlərinin qarşılıqlı tanınması məsələsi qoyulursa ya 1918-1920-ci illərdə təsdiqlənmiş sərhədlər, ya da 1921-1922-ci illərdə təsdiqlənmiş sərhədlər tanınmalıdır. Bu, həm Azərbaycan qanunvericiliyinə, həm də beynəlxalq hüquq normalarına uyğundur. SSRİ zamanında sonrakı illərdə Azərbaycanın əraziləri mərhələ-mərhələ qanunsuz olaraq Ermənistana verilib. Naxçıvanın sözügedən 9 kəndi, Zəngilanın Mehri, Nüvədi və digər kəndləri məhz bu yolla-qanunsuz olaraq Ermənistana verilib. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin belə bir qərar verməsinə ixtiyarı yox idi. Ona görə də qeyd olunan kəndlərimiz geri qaytarılmaqla Azərbaycanın sərhədləri tanınmalıdır. SSRİ-nin sərhədləri dedikdə SSRİ yaranan vaxt qəbul edilmiş sərhədlər nəzərdə tutulmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Sülh müqaviləsində əsas öhdəliklər

## Sənədin tam qəbul edilməsi Ermənistanın yeni Konstitusiyası üzrə referendum keçirilməsindən asılıdır

**"Azərbaycan və Ermənistan arasında Vaşinqtonda paraflanmış sülh müqaviləsinin mətninin ictimaiyyətə açıqlanması prosesin şəffaflığının göstəricisidir. Bu, öncəliklə Azərbaycan və Ermənistan cəmiyyətləri üçün, eləcə də xarici tərəflər üçün vacibdir".**

"Azpolitika" xəbər verir ki, bunu **politoloq Fərhad Məmmədov** sülh müqaviləsinin mətnini şərh edərkən bildirib.



Onun sözlərinə görə, birgə Bəyannamədən məlum olur ki, tərəflər müqavilənin yekun imzalanması və ratifikasiyası üçün səylər göstərəcəklər. Yəni sənədin tam qəbul edilməsi Ermənistanın yeni Konstitusiyası üzrə referendum keçirilməsindən asılıdır. Bu sənədin ABŞ-də qəbul olunması Bakı tərəfinin mövqeyinin məntiqiliyinə və obyektivliyinə Vaşinqtonu inandırdığını, həmçinin Ermənistan rəhbərliyi tərəfindən bu mövqeyin başa düşülüb qəbul edildiyini göstərir.

F.Məmmədov vurğulayıb ki, müqavilədə qarşılıqlı suverenlik və ərazi bütövlüyü tanınır və ən önəmlisi, qarşılıqlı ərazi iddiaları tamamilə istisna edilir. Bu, artıq Birgə Bəyannamədə əks olunmuşdu, amma müqavilədə hüquqi öhdəlik kimi əbədi qüvvəyə minir. Hətta bu öhdəlik Ermənistan hökumətindən başqa, ölkə ərazisində fəaliyyət göstərən təşkilatlar və şəxslərə də aiddir.

Politoloq deyib ki, diplomatik münasibətlərin qurulması və daxili işlərə müdaxilənin qadağan olunması prinsip etibarilə təsbit olunub.

O qeyd edib ki, SSRİ dövrünün inzibati sərhədlərinin dövlət sərhədi kimi qəbul olunması da müqavilədə yer alıb. Bu, erməni təbliğatında yayılan "Dağlıq Qarabağ heç vaxt Azərbaycan tərkibində olmayıb" tezisini əsassız edir və Qarabağın Azərbaycanın tərkibində olduğunu rəsmən tanıyır.

Politoloq vurğulayıb ki, müqavilədə yalnız qarşılıqlı zorakılığın qadağan olunması deyil, həm də üçüncü dövlətlərin ərazilərindən biri digərinə qarşı istifadə edilməməsi qeyd olunub. Azərbaycanın ərazisində xarici hərbi baza yoxdur, Ermənistan isə Rusiya hərbi bazasına sahibdir. Buradan əlavə mesajların nəzərdə tutulduğu ehtimal edilir. O deyib ki, sərhəddə üçüncü tərəflərin, məsələn, Avropa İttifaqının müşahidə missiyasının olmayacağı, sərhədin yalnız Azərbaycan və Ermənistan tərəfindən idarə olunacağı nəzərdə tutulur.

F.Məmmədov bildirib ki, sərhədin delimitasiyası və demarkasiyası hökumətlərarası komissiyanın fəaliyyəti çərçivəsində həyata keçiriləcək, konkret xəritələrdən bəhs edilmir. Bu da anklavlar, problemli zonalar kimi məsələlərin mərhələli və sülh yolu ilə həllinə imkan yaradır. Bu, manevr sahəsinin olması deməkdir.

Politoloq deyib ki, ilk dəfə belə müqavilələrdə 8-ci maddədə qarşılıqlı separatizmə qarşı mübarizə qeyd olunur. Hər iki tərəfin separatizm anlayışı ilə bağlı qanun qəbul etməsi və onun hansı hallarda cəzalandırılmalı olduğunu aydınlaşdırması gözlənilir.

F.Məmmədov vurğulayıb ki, 11-ci maddədə ölkələrin üçüncü tərəflər qarşısındakı öhdəliklərinin müqavilə ilə ziddiyyət təşkil etməməsi qeyd olunur. Yəni üçüncü ölkələr Azərbaycan və Ermənistanla münasibətlərində tərəflərə qarşı hər hansı ərazi iddiası ehtiva edən sənəd imzalamaq imkanına malik olmayacaq.

Onun sözlərinə görə, bütün mübahisələrin ikitərəfli komissiya vasitəsilə dialoq yolu ilə həll olunması planlaşdırılır və bunun üçün xüsusi struktur yaradılmalıdır.

Fərhad Məmmədov bildirib ki, ən maraqlı maddələrdən biri 15-ci bənddir - beynəlxalq məhkəmələrdə iddialardan imtina. Bu, yalnız dövlətlərin indiki iddialarını deyil, həm də region və digər ölkələrdən qeyri-hökumət təşkilatları tərəfindən veriləbiləcək iddiaları əhatə edir. Bu iddialar dəstəklənməyəcək, tərəflər belə hallara şərait yaratmayacaqlar.

Nəticə olaraq F.Məmmədov sənədin məzmunca çox dolğun və önəmli olduğunu qeyd edib.

❑ **"Yeni Müsavat"**

# "Zəngəzur zorla ələ keçiriləcək" uydurması

## Bakı üçtərəfli bəyanatın 9-cu bəndinin icrasını bir güllə atmadan Ermənistanın üzərinə öhdəlik kimi qoydu...

**4 il hakimiyyətdə olan Co Bayden Administrasiyası (2020-2024) Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərbə vurdu. Qondarma soyqırımı tanımaq kimi axmaq qərardan başlamış, erməni lobbisinin bütün gücü ilə dəstəkləyən bu administrasiya Vaşinqtonu Bakıdan uzaqlaşdırmaq siyasətindən geri çəkilmədi.**

Təsadüfi deyil ki, dövlət başçısı İlham Əliyev Ağ Evdəki tarixi imzalanma mərasimindən sonra Azərbaycan media təmsilçilərinə verdiyi müsahibədə də bu məsələ üzərində xüsusi dayandı. Dövlət başçısı dedi ki, son beş ildə Azərbaycanın Ermənistana hücum etməyi planlaşdırdığı, guya Zəngəzuru güc yolu ilə ələ keçirmək niyyəti haqda yalan məlumatlar yayılıb.

"Bu anti-Azərbaycan təbliğatının aparıcı qüvvəsi Bayden administrasiyası idi. Biz bunu dəqiq bilirik, çünki avropalı tərəfdaşlarımızla apardığımız danışıqlarda onlar dəfələrlə deyirdilər ki, bu məlumat Baydenin komandasından gəlir. Onlar qəsdən Azərbaycanın guya aqressiv niyyətləri barədə şayiələr yayırdılar", - deyə dövlət başçısı bildirib.

Azərbaycan Qarabağda tam suverenliyini bərpa etdikdən sonra ermənipərəst dövlətlər Bakının guya Ermənistanın ərazi bütövlüyünə qarşı planlar cızdığı və Türkiyənin dəstəyi ilə Zəngəzur dəhlizini güc yolu ilə açacağı haqda yalanlar tirajlayırdılar. Bu məsələdə Fransa da aktiv rol oynayırdı. Xüsusilə Fransa mediası (məsələn, "Le Figaro") 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın 9-cu bəndinin guya Azərbaycan silah gücünə özünün icra edə biləcəyi yalanı uydurulurdu. Söhbət kommunikasiyaların açılmasını nəzərdə tutan və Ermənistanın icra etmədiyi 9-cu bənddən gedirdi.

Fransa ilə yanaşı, Hollandiya və Belçikada olan müəyyən dairələr də bu qərəzli kampaniyanın içində yer alırdılar. Belə yalan təbliğatda məqsəd bu idi ki, Ermənistanı güclü şəkildə silahlandırsınlar və bununla bağlı legitim hüquqi zəmin formalaşdırsınlar. Azərbaycanın isə heç vaxt Ermənistana hücum etmək kimi bir niyyəti olmayıb. Ağ Evdə imzalanan sənədlər də sübut etdi ki, Bakının yürütdüyü xarici siyasətin ana xətti regionda qalıcı sülhə və təhlükəsizliyə nail olmaq, qonşuları ilə qarşılıqlı hörmət çərçivəsində əməkdaşlıqdır.

Bayden və Avropa niyə bu təxribatçı şayiələri yayırdılar?

**Milli Məclisin deputatı Azər Badamov** "Yeni Müsavat"a bildirdi ki, Bayden-Blinken Administrasiyası Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərbə vurdu: "Hətta deyə bilərik ki, iki ölkə arasındakı münasibətlər tarixin minimumuna enmişdi. Bayden müstəqil siyasət yürüdə bilmirdi. O, erməni lobbisinin girovuna çevrilmişdi. Ona görə də Deputatlar Palatasında və Senatda Azərbaycana qarşı qəbul olunmuş kağız parçaların tapşırığı Ağ Evdən verilirdi. Prezidentin zəifliyini görən deputatlar ermənilərdən pul alaraq Azərbaycana qarşı danışırdılar. Hətta Pelosi xala Ermənistana səfərə gəldi. Bayden-Blinken Administrasiyası Azərbaycanın Ermənistana Zəngəzur dəhlizinin açılması ilə bağlı guya hücum edəcəyi ilə əlaqədar beynəlxalq rəy formalaşdırırdı. Məhz bu yolla ABŞ Ermənistana hərbi dəstək göstərməklə Ermənistana hərbi üstünlük qazandıraraq yenidən vəziyyəti gərginləşdirirdi. Fransada da eyni ssenari davam edirdi. Makron Fransasının Milli Assembleyası da anti-Azərbaycan kampaniyasına qoşulmuşdu. Makron Fransası Avropa Parlamentini və AŞPA-nı da ələ alaraq Azərbaycana qarşı hücuma qaldırmışdı. Hollandiya və Belçika Makronun xoşuna gəlmək üçün kağız parçaları qəbul edirdilər. Bu, ölkəmizə qarşı böyük haqsızlıq idi. Çünki Prezident İlham Əliyev 10 noyabrda üçtərəfli Bəyanat imzalanandan sonra müharibənin başa çatdığını və digər məsələləri siyasi yollarla həll olunacağını açıq şəkildə bəyan etmişdi. Üçtərəfli bəyanatın 9-cu bəndinin icrasını isə Azərbaycan heç vaxt güc yolu ilə edəcəyini deməmişdi. Biz Zəngəzur dəhlizini tələb edirdik. Çünki Paşinyan sənədə imza atmışdı və bu sənədin icrası Ermənistanın öhdəliyi idi. Zaman göstərdi ki, Azərbaycanın yenidən müharibə etmək planı heç vaxt olmayıb. 8 avqustda imzalanan sənədlər Azərbaycanın dediyi kimi dinc yolla Zəngəzur dəhlizinin açılmasını da təsdiq etdi. Bizim üçün əsas maraqlı məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidin təmin olunmasıdır. Bu məsələ də Azərbaycanın tələb etdiyi kimi öz həllini tapır".

Deputat onu da bildirib ki, Donald Tramp hakimiyyətə gələndən sonra Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ başlayıb: "Prezident ilham Əliyevin ABŞ-yə səfəri çərçivəsində Trampla keçirdiyi görüşlər və imzaladığı sənədlər Bayden -Blinken Administrasiyasının qərəzli siyasətini arxivə göndərdi və 907-ci düzəlişi dayandıraraq Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması üçün müvafiq sənəd imzalandı. O cümlədən Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsi paraflanaraq Trampın iştirakı ilə birgə bəyanat imzalandı. Vaşinqtonda keçirilən görüşlər və imzalanan sənədlərdən sonra Azərbaycana qarşı qərəzli kampaniyaya qoşulmuş dairələr də ölkələrimiz arasındakı sülh danışıqları və Zəngəzur dəhlizinin açılmasını dəstəkləməyə başladılar. Əslində bu, onların Azərbaycana qarşı son 4 ildə apardıqları qərəzli kampaniyanın iflasa uğraması deməkdir. Bu, Prezident İlham Əliyev diplomatiyasının bütün anti-Azərbaycan qüvvələrinə qalib gəldiyini bir daha təsdiq etdi".




**Siyasi təhlilçi Sona Əliyeva** qeyd etdi ki, İlham Əliyev savaşın ardından əbədi sülhü də qazanmağa nail oldu: "Təxminən 2-3 il öncə ABŞ və erməni mediası, eləcə də Fransanın bir sıra qəzetləri Azərbaycan haqqında uydurma və yalan dolu informasiyalar yayırdılar. Onlar iddia edirdilər ki, guya Azərbaycan Zəngəzur dəhlizini güc yolu ilə açmağa çalışır. Əslində bununla Bayden və Makron hakimiyyəti Azərbaycanı təxribatlara çəkmək istəyirdi. Rəsmi Bakı isə bu qarayaxma kampaniyalarına səbir və təmkinlə qalib gəldi. Özü də bu ABŞ-də, vaxtilə Co Baydenin əyləşdiyi otaqda - Ağ Evdə baş verdi. Bəli, Zəngəzur dəhlizi açıldı. Naxçıvana quru yolla hərəkətimiz təmin edildi. Üstəlik, rəsmi Bakı vaxtilə bizə qarşı şər kampaniyasına başçılıq edən Fransa Prezidenti Emmanuel Makronu məcbur etdi ki, İlham Əliyevin bu qələbəsini alqışlasın. Azərbaycan Prezidenti dəfələrlə vurğulayırdı ki, biz Zəngəzura tanklarla yox, avtomobillərlə qayıdacağıq. Artıq onun işartıları görünür. Sülh sazişi imzalanandan sonra Qərbi Azərbaycandan olan soydaşlarımız da mərhələli şəkildə öz ata-baba yurdlarına qayıdacaq. Buna hamımız inanırıq. Sadəcə, hər şeyin vaxtı və zamanı var. Ölkəmizin başçısı nəyi nə zaman edəcəyini çox yaxşı bilir. Bu gün Azərbaycana qarşı qarayaxma və təxribatçı informasiya yayanların hamısı eyni gündə - 8 avqustda, özü də Ağ Evdə məğlub oldular. Hətta deyərdim ki, nakauta düşdülər. Əslində onların çirkin kampaniyalarının arxasında erməni lobbisi və Soros Fondu dayanırdı. Azərbaycana qarşı təsir aləti kimi bu cür addımlara gedirdilər. Amma təxribat cəhdlərinin hamısı boşa çıxdı. İlham Əliyev savaşın ardından əbədi sülhü də qazanmağa nail oldu".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

### Azərbaycandan Ermənistana qaz ixracı

**"Elektrik ötürücü xətləri, fiber-optik rabitə xətləri və gələcəkdə Xəzərin o tayındakı qonşularımızla birlikdə Azərbaycan enerji resurslarını nəql edə biləcək digər enerji infrastrukturunu da nəzərdə tuturuq",- ölkə başçısı deyib.**

Modern.az-a açıqlamasında **Neft Araşdırmaları Mərkəzinin sədri İlham Şaban** bildirib ki, əslində bu məsələ ötən ildən məlumdur.

"Hələ o zaman qeyd etmişdi ki, buradan Naxçıvana qaz kəməri olacaq, bundan əlavə yüksək gərginlikli elektrik xətləri çəkiləcək. Burada yenilik olaraq fiberobtiki gördüm. Bəli, Naxçıvanın internet və rabitə təminatı da oradan keçəcək. Ancaq digər yandan neft kəməri mənasızdır. Çünki Naxçıvanın yanacağa olan təminatı dəmir yolu ilə həyata keçiriləcək. İndi, sadəcə, İran üzərindən avtosisternlərlə bu, nəql olunur və daha baha başa gəlir. Bax, bu, artıq daha ucuz ərsəyə gələcək. Qaz kəməri yalnız Naxçıvanın tələbatı üçün deyil. Bu ilin martında Naxçıvan-İqdır qaz kəməri istismara verildi. Həmin kəmər elə layihələndirilib ki, Naxçıvanın tələbatından 3 dəfə çox qaz daşımaq gücünə malikdir. Mən hələ o zaman qeyd etmişdim ki, vaxtı çatanda Naxçıvanın qaz təminatı Azərbaycandan birbaşa Zəngəzur dəhlizindən keçməklə Naxçıvana boru kəməri çəkiləndə İqdır-Naxçıvan kəməri əks istiqamətdə istifadə ola bilər. Çünki kəmərin 1,5 milyard kubmetr buraxılış gücü var. Naxçıvanın isə illik haradasa 400 milyon kubmetrdən bir az artıq qaz tələbatı var. Deməк, yerdə qalan hissə İqdır və ətraf rayonlar üçün yetərli ola bilər. Və bu, Azərbaycandan gedəcək. Biz 1 ildə Gürcüstan üzərindən 10 milyard kubmetr qazı Ərzuruma çatdırırıq. Oradan da gəlir. Ancaq bu yol daha qısa və kommersiya baxımından Azərbaycan, o cümlədən Türkiyədəki istehlakçılar üçün əlverişlidir".

İ.Şaban vurğulayıb ki, Azərbaycan Zəngəzur dəhlizi vasitəsilə Ermənistana da qaz verə bilər:

"Başqa bir tərəfdən nəzərə almalıyıq ki, 1 il ərzində Ermənistan 2,5 milyard kubmetr qaz istehlak edir. Bunun təxminən 500 milyon kubmetri İran üzərindən gəlir. Ermənistan ildə Rusiyadan 2 milyard kubmetr qaz alır və o qazın təminatçısı rolunda Azərbaycan da çıxış edə bilər. Vaxtilə 2007-ci ilə qədər Rusiya Gürcüstan bazarında monopolist idi. İndi isə 400-450 milyon kubmetr Rusiya qaz verir, yerdə qalan 2-2,1 milyardı, bəzən daha çox olur, Azərbaycandan gələn qazın hesabına həyata keçirilir. Bu baxımdan biz Zəngəzur dəhlizindən Ermənistana da qaz verə bilərik. Təbii ki, bunu istəsələr, istəməsələr, heç kəs onları məcbur edən deyil ".

# Ukraynaya silah, yoxsa humanitar yardım?

## Ekspertlər hesab edir ki, Bakı humanitar yardımla kifayətlənəcək, çünki...

**Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti V.Zelenski arasında telefon danışığı zamanı Rusiyanın Ukraynanın qaz infrastrukturu və SOCAR-a məxsus neft bazasına endirdiyi hava zərbələri də müzakirə edilib. Hər iki lider Rusiya Silahlı Qüvvələrinin fəaliyyətindən narahatlığını ifadə edib. Azərbaycan və Ukrayna liderləri Rusiyanın SOCAR-ın neft anbarına avqustun 8-dəki hücumunu məqsədli hesab ediblər. Bu hücum Vaşinqtonda üçtərəfli görüş getdiyi müddətdə baş verib. Bundan əvvəl Rusiya 28 iyunda Azərbaycandan Ukraynaya qaz nəqlinin başladığı Trans-Balkan qaz kəmərinin mühüm hissəsi olan Orlovka yaxınlığındakı qazpaylayıcı stansiyanı hədəfə almışdı. Azərbaycan və Ukrayna prezidentləri bəyan edib ki, bu hücumların iki ölkənin energetika sahəsində əməkdaşlığını dayandırmayacaq. Prezident İlham Əliyev hadisədən üç gün sonra özünün ehtiyat fondundan Ukraynaya 2 milyon dollar dəyərində humanitar yardım göndərib.**



Caliber.az-ın etibarlı mənbələrdən əldə etdiyi məlumata görə, əgər Rusiya Azərbaycanın maraqlarına qarşı aqressiv siyasətini davam etdirərsə, rəsmi Bakı öz arsenalında olan silahların Ukraynaya tədarükünə qoyulan embarqonun götürülməsi məsələsini nəzərdən keçirməyə başlayacaq.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** düşünür ki, Rusiya ilə Azərbaycan arasında geniş enerji əməkdaşlığı olduğundan Ukraynaya dəstək humanitar yardımla kifayətlənəcək(pressklub.az).

**Parlamentdə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aqil Abbas** isə deyib ki, Rusiyanın məqsədi Azərbaycana yox, Ukraynaya ziyan vurmaqdır: "O yalnız Azərbaycanın qaz kəmərini vurmur. Ukraynaya gələn - istər Amerikadan gəlsin, istər Banqladeşdən-Ukraynada enerji böhranı yaratmaq üçün enerjini vururdu, qazı vurурdu. Bu, sırf Azərbaycanla bağlı deyil, Ukrayna ilə bağlıdır. İki gündən sonra düzəldi, bizə nə ziyan dəyib ki? Həmin qaz kəməri düzəldi və yenə qaz getdi. Qaldı ki, Rusiya ilə münasibətlərə, bir az soyuyub. Yəqin ki, Rusiya ağıllanacaq, çünki Rusiyanın bizdən başqa dostu yoxdur bu dəqiqə".

Rusiyanın təhlükəsizlik və xarici siyasətini təhlil edən araşdırmaçı, Avropa Kollecinin baş elmi işçisi **Nurlan Əliyev** deyib ki, tarixən Rusiya rəqib hesab etdiyi dövlətlərin iqtisadi maraqlarına ziyan vuran addımlar atıb. Son zamanlar Rusiya ilə Azərbaycanın münasibətlərinin gərgin olmasını da nəzərə alanda bu hadisəni iqtisadi maraqlarla yanaşı, Azərbaycan-Ukrayna münasibətlərini hədəf almaq kimi dəyərləndirmək olaq. Azərbaycan hökumətinin addımlarına gəlincə, araşdırmaçı hesab edir ki, Rusiyanı daha da qıcıqlandırmamaq üçün Azərbaycan ölçülü addımlar atmağa meylli olacaq: "Məsələn, vurulan təyyarə ilə bağlı (AZAL-ın qəza enişi edən təyyarəsi) beynəlxalq məhkəməyə müraciət etmək məsələsini daha da qabardacaq. Eyni zamanda Azərbaycan çalışacaq ki, Avropa İttifaqı ilə də münasibətləri inkişaf etdirsin. Birləşmiş Ştatlarla onsuz da bunu edir... Əgər Rusiya ilə münasibətlər belə vəziyyətdədirsə, Rusiyadan təhlükə ola bilər, artıq biz bunu görürük".

**Politoloq Elxan Şahinoğlu** deyib ki, Azərbaycanın Ukraynaya silah satışına embarqonu qaldıra biləcəyi anonsunun verilməsi tam yerindədir: "Rusiya ordusu Kremlin təlimatı ilə Azərbaycan Dövlət Neft Şirkətinin Ukraynadakı yanacaq mərkəzlərini hədəf alıb. Əvvəlcə Azərbaycan qazını Ukraynaya nəql edən boru xəttinə, bir neçə gün sonra isə Dövlət Neft Şirkətinin Odessa şəhərindəki yanacaq mərkəzinə raket zərbələri endirdilər. Bununla Kreml Azərbaycanla onsuz da gərgin olan münasibətləri daha da gərginləşdirib. Dövlət Neft Şirkətinin xarici ölkədəki yanacaq mərkəzinə zərbə endirmək və orada çalışan insanlara zərər yetirmək faktiki Azərbaycanı hədəf almaq deməkdir. Buna görə də rəsmi Bakı adekvat addımlar barədə düşünmək məcburiyyətindədir. Belə vəziyyətdə Azərbaycanın Ukraynaya silah satışına embarqonu qaldıra biləcəyi anonsunun verilməsi tam yerindədir".

Bundan əvvəl Ukraynanın Jitomir vilayətinin Berezina kəndində partlayışlar nəticəsində Azərbaycanın "SOCAR Energy Ukraine" şirkətinə məxsus iki yanacaqdoldurma məntəqəsi ciddi zərər görmüşdü. Azərbaycanla Rusiya münasibətlərində ötən ilin dekabrında AZAL təyyarəsi qəza enişi edəndən sonra gərginlik başlayıb və bir ara səngisə də, iyunun sonunda Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı zorakılıqdan sonra Azərbaycan hökumətinin Rusiya ilə gərginliyi qarşılıqlı notalar, diplomatik səfərlərin ləğvi səviyyəsinə qalxıb.

❑ **"Yeni Müsavat"**

# Bu ay İranla yenə müharibə başlayacaq

## ABŞ-nin "Foreign Policy" jurnalında "Üfüqdə növbəti İsrail-İran müharibəsi görünür" adlı məqalədə nələr var?

**ABŞ-nin "Foreign Policy" jurnalında "Üfüqdə növbəti İsrail-İran müharibəsi görünür" adlı məqalə dərc olunub. Yazının müəllifi Kuinsi adına Məsuliyyətli Dövlət İdarəçiliyi İnstitutunun icraçı vitse-prezidenti Trita Parsidir.**



Trita Parsi əslən iranlıdır, həm İran, həm də İsveç vətəndaşıdır, bir ara Milli Amerika-İran Şurasına rəhbərlik edib.

Novator.az-ın məlumatına görə, Trita Parsi məqaləsində yazır ki, İsrail bu ilin sonunadək, bəlkə də elə bu ay İranla yeni müharibəyə başlaya bilər: "İran bu ilin iyun ayında müharibənin uzun sürəcəyini gözləyirdi və uzunmüddətli qarşıdurmaya hazırlaşdığına görə bütün gücünü birdən-birə xərcləmirdi, hücumları aram-aram həyata keçirirdi. Yeni savaşda İran daha riskli davrana, İsrailin hərbi üstünlüyünə boyun əyməmək qətiyyəti nümayiş etdirə bilər. Bu isə müharibənin daha qanlı, daha irimiqyaslı xarakter almasına gətirib çıxara bilər. Əgər ABŞ Prezidenti Donald Tramp yenidən İsrailin təzyiqi altında münaqişəyə qoşularsa, onda prosesin Amerika ilə İran arasında böyük müharibəyə çevrilməsi, Vaşinqtonun İraq müharibəsindən daha çətin bir savaşla üzləşməsi də mümkündür".

Müəllifin fikrincə, iyun müharibəsində İsrailin məqsədi təkcə İranın nüvə proqramını dayandırmaq deyildi: "İsrailin əsl məqsədi Yaxın Şərqdə güc balansını dəyişməkdir. Tel-Əviv illərdir ABŞ-ni İranla hərbi əməliyyata cəlb etməklə Tehranın mövqelərini zəifləməyə çalışır. İyun ayındakı zərbələrlə İsrail üç hədəf güdürdü: ABŞ-ni İranla birbaşa savaşa qatmaq, İran rejimini başsız qoymaq, İranı Suriya və Livan kimi asanca bombalana biləcək zəif ölkəyə çevirmək. Bu hədəflərdən yalnız biri, o da qismən gerçəkləşdi - ABŞ müharibəyə qoşuldu, amma tam miqyasda yox. Tramp İranın bir neçə nüvə obyektinə məhdud hava zərbələri ilə kifayətləndi, münaqişəni genişləndirmədi".

İyunun 13-də İsrailin İrana endirdiyi ilk zərbələrin effekt verdiyini, 30 komandanın, 19 nüvə aliminin öldürüldüyünü, ancaq islam respublikası rəhbərliyinin 18 saat sonra özünü toparlayıb əks-hücuma keçə bildiyini yazan müəllifin sözlərinə görə, İsrail kəşfiyyatının psixoloji təzyiqləri də Tel-Əvivin gözlədiyi reaksiyanı doğurmadı: İran rəsmiləri postlarını qoyub qaçmadılar, rejimi tərk etmədilər, üstəlik, cəmiyyətdə də parçalanma, rejimə qarşı üsyan baş qaldırmadı, əksinə, iranlılar, hətta teokratik rejimi bəyənməyənlər də müqavimət ruhuna köklləndilər.

Trita Parsi yazır ki, İsrailin müdafiə naziri və Baş Qərargah rəisi iyun döyüşlərinin yalnız birinci mərhələ olduğunu açıq şəkildə bəyan ediblər: "Tel-Əviv İranın raket ehtiyatlarını bərpa etməsinə, hava hücumundan müdafiəni gücləndirməsinə imkan vermək fikrində deyil. "Ot biçmək" adını almış strategiyaya görə, düşmən özünü toparlamamış, İsrailin hərbi hökmranlığına meydan oxuya biləcək vəziyyətə gəlməmiş ona qabaqlayıcı zərbələr endirilməlidir. Bu məntiqlə İsrail növbəti hücumu tezləşdirməkdə maraqlıdır. Üstəlik, ABŞ-də aralıq seçkilər yaxınlaşır, seçki dövründə isə Vaşinqtonun yeni hərbi əməliyyata reaksiyasının necə olacağını hesablamaq çətindir".

Yaxın aylarda, bəlkə də həftələrdə İsrailin İrana növbəti zərbələr endirəcəyini ehtimal edən Trita Parsi vurğulayır: "Əlbəttə, İran liderləri bundan yayınmaq istərdilər. Amma o biri yandan da İran "ot biçmə" strategiyasını puça çıxarmaq üçün, güman ki, yeni müharibənin elə başlanğıcından İsrailə güclü və sürətli zərbələrlə cavab verməyə çalışacaq. İranın xarici işlər naziri Abbas Əraqçi "Təcavüz təkrarlansa, daha qətiyyətli və gizlədilməsi mümkün olmayan şəkildə cavab verməkdən çəkinməyəcəyik" deyib. İran liderləri hesab edirlər ki, yeni hücum İsrailə baha oturmalıdır, yoxsa İranın raket potensialı tam sıradan çıxa, ölkə müdafiəsiz qala bilər".

Çox şeyin tərəflərdən hansının daha çevik hərəkət edəcəyindən asılı olduğunu, amma bu məsələdə bir sıra sualların açıq qaldığını, heç bir tərəfin həmin suallara inamla cavab tapa bilmədiyini yazan müəllif qeyd edir ki, ABŞ Prezidenti Donald Trampın növbəti İsrail-İran savaşına reaksiyası həlledici rol oynaya bilər: "Tramp isə, belə görünür ki, uzunmüddətli münaqişəyə qarışmaq istəmir".

Bununla yanaşı, yenidən müharibə alovlanarsa, Donald Trampın daha məhdud müdaxilə ilə kifayətlənə bilməyəcəyini düşünən Trita Parsinin gümanına görə, bu dəfə Tramp ya bütünlüklə müharibəyə girməli, ya da tamam yaxasını qırağa çəkib durmalı olacaq. Müəllif ikinci versiyanı o qədər də ağlabatan saymır.

YENİ MÜSAVAT
N 141 (8751) 13 avqust 2025



# Bakının başı haqqında şeir

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yazı qəzetdə avqustun 13-də dərc olunacaqdır, hörmətli oxuculardan xahiş edirəm müəyyən dərəcədə ehtiyatlı olsunlar, çünki 8-ci ayın 13-ü istər-istəməz nəhs gündür. Hesablamaq çox asandır: 8+13=21x2025=42525=4+2+5+2+5=6+12=6+6+6! Yəni hardan baxsan 13 avqust 666 şeytan rəqəmini ifadə edir.**

Niyə bunu elmi şəkildə araşdırdım, çünki Google qabağıma məlumat atmışdı, orda gördüm uca millətimizin avqustun son günlərində ən çox oxuduğu yazılardan biri təxminən belə idi: "Ayın ən uğurlu günləri bunlardır". Təxminən 12 min adam oxumuşdu. Təsəvvür elə, ölkədə 12 min nəfər kalendarda uğurlu günlərin sorağındadır. Görün ətrafımızda necə insanlar dolaşır. Uşağı çörək almağa da tək buraxmaq olmaz.

Maraqlıdır ki, məlumatı hazırlayan yoldaş o boyda sazişin bağlandığı günü öz kalendarında qeyd etməmişdi. Düşünürəm yaxın gələcəkdə bəlalərinə öz yerini göstərməliyik.

Ümumiyyətlə, elmi-lədun, cadu bağlamaq, fala baxma, pir ziyarəti kimi ciddi işlərdə davamiyyətsizlik müşahidə olunur. Məsələn, vaxtilə Həmid müəllim pirlərdən maraqlı verilişlər hazırlayırdı, camaat ziyarət yerlərini tanıyırdı, xəstələr sağalır, arvadlar uşağa qalırdı. İndi nəsə fasilə verilibdir. Əsl vaxtıdır. Pirdə olan pul heç yerdə yoxdur, əmin edirəm. Şeyx Nəsrullah irsini yaşatmaq da borcumuzdur. Məsələn, mən Müşfiq Ötkün adlı bir yoldaşın çıxışlarına tez-tez rast gəlirəm, onda əsl Nəsrullah potensialı görürəm. Savadlı insandır. İnşallah, tezliklə Kərbəlayı Fətullahın mübarək naməsi də bizə yetişər, Müşfiq ağa ölüləri diriltməyə başlayar. Şair demişkən: "Məlikra on nəsihət sudmənd aməd və əz səri-xuni-u dər güzəşt".

Mövzu şeirə uzandığı üçün dəyərli oxucularımızdan Elçin Əliyevin Bakı haqqında yazıb bəndənizə göndərdiyi nəzm parçasını burada dərc etməliyəm:

"Raxit Bakı, başın böyük, bədənin dar.
Rayonlardan gələnlərin nə qədər var.
Tüstü dolu, zibil dolu küçələrin zibilini,
400 manat maaş alan vətəndaşın necə yığar?
Gözəl Bakı, gündən-günə tikilirsən, ucalırsan, Binaların ucaldıqca özün yaman qocalırsan.
Bir balaca göy üzündən suyu açsan, dayanmadan, Bircə günə o quruyan Xəzərin də səni boğar.
Gözəlliyindən bir az da,
Üzü qəmdən qırışlanan gənclərə ver. Xöşbəxtliyindən bir az da
Sülh istəyən dinclərə ver.
Bilmirəm ki xöşbəxtmisən, gözü yaşlı bədbəxtmisən, Heç olmasa pulsuzluqdan
Marşrutda yolsuzluqdan
Zülm çəkən insanları düşün bir az,
Xəzərin də çəkilərək, böyüyübdü başın bir az. Xoşbəxtliyindən bir az da kəsib vermə daşa-quma. Yağışınla qəlbləri yu, selə dönüb körpü yuma. Tikintini burax getsin, tikildikcə dağılırsan.
Beton kubik altında sən gör nə qədər boğulursan. Xoşbəxtlik ver insanlara,
Axı buna gücün çatar.
Nə qədər ki, gec deyil, bu
içindəki istedadı üzə çıxar, üzə çıxar.
Gözəl Bakı, gözəl Bakı".

Bilmirəm sayın oxucular nə qədər hiss etdilər, amma mən şairimizin ürək yanğısını, paytaxtımızın 2040-3040-cı illəri əhatə edən inkişaf və baş planı haqda hisslərini açıq duydum, ürəyim sızıldadı.

Ümumiyyətlə, Bakımızın (burada şit jurnalistlər kimi söz oyunundan özümü saxlamağa ehtiyac duymuram: "Bakımız - neft bakımız") poeziya sarıdan bəxti həm gətirir, həm gətirmir. Elə şair var ona nəğmə qoşubdur, "Bakı, sabahın xeyir" deyibdir, elə şair də olub qəmlə qələmə almışdır: "Bakının dərdi var, Bakı xəstədir".

Sonda onu da bildirməliyəm ki, bu yazımı 13 dəfə oxuyanlar yaxşı pul qazanacaq.



# "3+3" regional formatının sonu

## Bölgədə son hadisələr və "Tramp yolu" "altılıq platforması"nı sual altına qoydu; layihənin perspektivi qaldımı?

**Azərbaycan-Rusiya, Rusiya-Ermənistan münasibətlərində gərginlik, Tiflis və Moskva arasında hələ də diplomatik münasibətlərin bərpa edilməməsi, eləcə də İran-İsrail savaşı regional əlaqələri və inteqrasiyanı nəzərdə tutan "3+3" formatının taleyini sual altında qoyub. "Yeni Müsavat" xatırladır ki, bu format altı dövlətin Rusiya, İran, Türkiyə, digər tərəfdən isə Azərbaycan, Gürcüstan və Ermənistanın əməkdaşlığını nəzərdə tutur. Bu konfiqurasiya Rusiyanın Gürcüstanla münasibətləri dalandan çıxarmaq, İranın Cənubi Qafqaz siyasətində daha tolerant siyasət yürütmək şansı kimi qiymətləndirilirdi.**

Bundan əlavə, Türkiyə və Ermənistan arasında həllini tapmamış bir sıra məsələlər bu platforma çərçivəsində iki ölkənin əməkdaşlığına mane olur. İki ölkə arasında diplomatik nümayəndəlik mövcud deyil. Türkiyə Azərbaycan torpaqlarının işğalı səbəbindən 1993-cü ildən Ermənistanla sərhədi bağlı saxlayır. Bunun nəticəsində avtomobil və dəmir yolu əlaqəsi yoxdur. Bütün bunlara baxmayaraq, Ermənistan və Türkiyə təmsilçiləri "3+3" platformasının işində iştirak edirlər.

Bu çərçivədə əməkdaşlıqdan birmənalı şəkildə imtina edən təkcə Gürcüstandır. Sirr deyil ki, Moskva və Bakı arasında ötən ilin dekabrından davam edən gərginlik bu əməkdaşlıq konfiqurasiyasına ciddi əngəl oldu. Rusiyanın və İranın ən ciddi rəqibləri, ABŞ-nin isə Zəngəzur dəhlizinə (Tramp yolu) gəlişi bu əməkdaşlıq formatının taleyinə də təsirsiz ötüşməyə bilməz. İndi vəziyyət elə dəyişib ki, nə Moskva, nə Tehran bu formatda əməkdaşlığı davam etdirməyə hazır deyil. Ümumiyyətlə, bu formatın daha perspektivi qaldımı?

Onu da deyək ki, Azərbaycanın təşəbbüskarı olduğu bu format Türkiyə tərəfindən də tam dəstəklənib. Göründüyü kimi, "3+3" çərçivəsində əməkdaşlıq o qədər də sadə məsələ deyil. Lakin Rusiya və İran destruktiv siyasətinə son qoymağı bacarsa, bu platforma reallaşa bilər. Çünki hər şey Moskva və Tehranın münasibətindən asılıdır. Eyni zamanda Gürcüstanı da razı salmaq mümkündür. Yəni "Tramp marşrutu" və Bakı ilə İrəvan arasında sülh razılaşması bölgə üçün yeni imkanlar açır. Əgər Rusiya və İran qərəzindən əl çəksə, iqtisadi doktrina ilə regiona gəlsə, "altılıq platforması" üçün fürsətlər yenə yarana bilər.

Yada salaq ki, buna qədər "3+3" formatının (Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rusiya, İran) görüşləri olub. Birinci toplantı 2021-ci ilin dekabrında xarici işlər nazirlərinin müavinləri səviyyəsində Moskvada, ikinci görüş isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşıb. Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra üçüncü görüş isə İstanbulda keçirilib.

**Siyasi şərhçi Xəyal Bəşirovun** "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycanın təşəbbüsü artıq bəllidir: "Bu formatın Vaşinqton razılaşmalarına aidiyyəti yoxdur. Hansı dövlət sülh prosesinə və regional əməkdaşlığın inkişafına dəstək verirsə, onu alqışlayırıq. Ağ Evdə əldə olunan razılaşma da məhz Cənubi Qafqazda sülhə xidmət edir. "Tramp marşrutu"na gəlincə, mahiyyəti dəyişmədi, Zəngəzur dəhlizidir. Ona görə də "3+3" formatına region ölkələrinin necə yanaşması əsasdır. Məsələn, Gürcüstan Rusiya ilə düşmənçiliyə görə imtina edir, amma bu, bizim problem deyil".

X.Bəşirovun fikrincə, əsas olan "3" formatını qurmaqdır və buna nail olmuşuq: "Bundan sonra 3 dövlətin qoşulması artıq onların seçimindən asılı olacaq. Yeni Gürcüstan Vaşinqton anlaşmasını dəstəkləməklə "3" formatı təmin edildi. Əgər Rusiya və İran istəməsə, itirən tərəf onlardır. Türkiyə isə bu prosesdə aktiv iştirak edəcək. Yəni bu format "3+1" də ola bilər. Sadəcə, Tehran və Moskva praqmatik düşünməlidir, regional əməkdaşlığın gətirəcəyi iqtisadi dividentdən istifadə etməlidir. Əks halda onun zərbəsi Rusiya və İrana dəyəcək. Çünki hər iki tərəf üçün yollar bağlanıb. O baxımdan şimal və cənub qonşularımız Cənubi Qafqaz kimi nəfəsliyi əldən verməməlidirlər".

Siyasi şərhçinin sözlərinə görə, ümumilikdə Cənubi Qafqaz regionu strateji cəhətdən qlobal kəsişmə nöqtəsi və böyük güclərin maraqlarının ənənəvi toqquşma qovşağına çevrilmişdi: "Region son illərdə Qarabağ müharibəsi, Gürcüstanda daxili dəyişikliklər və Rusiya-Ukrayna müharibəsi kimi proseslərə məruz qalıb. İndi isə sülh sənədi paraflandı, Ukraynada atəşkəs ümidləri yaranıb. Düşünürəm ki, regionda yeni bir dövr başlana bilər. Platforma həm də iştirak edən ölkələr arasında iqtisadi əməkdaşlığın və inteqrasiyanın artırılması, bölgə əhalisi üçün daha çox ticarət, investisiya və iş imkanlarının yaradılması və s. baxımından da əhəmiyyətlidir. Çünki "3+3" formatında ölkələrin ümumi iqtisadiyyatı 3 trilyon dollara yaxındır. Bu da sərmayə qoyuluşu, sənaye, aqrar və xidmət sektorunda işbirliyi imkanlarının geniş olmasının göstəricisidir".

Onun fikrincə, format regional əlaqələrdə, dialoq və əməkdaşlığın təmin edilməsi ilə gərginliyin azaldılmasına və regionda sabitliyin təşviqinə kömək edə bilər: "Həmçinin "3+3" platforması regionun enerji və nəqliyyat layihələri üçün də əhəmiyyət kəsb edir. Bu, Avropa və Asiya arasında daha sıx əlaqə yarada bilər ki, bu da region üçün faydalıdır. Bir sözlə, Rusiya və İranın gələcək addımları "3+3" formatının yaşayıb-yaşamayacağını müəyyən edəcək. Hazırda bu platforma dondurulmuş görünür. Birincisi, Moskva təyyarəmiz vurulandan bəri Bakı ilə əlaqələri düzəltmir, getdikcə böhran daha da dərinləşir. İkincisi, İranın mühafizəkar qanadı Zəngəzur dəhlizi əleyhinə bəyanatlar verməyə davam edir. Üçüncüsü isə, Gürcüstanın işğal problemi qalmaqdadır. Bu mənada "3" formatının reallaşması daha yaxındadır. Bizi də maraqlandıran Cənubi Qafqaz ölkələri arasındakı münasibətlər, dayanıqlı sabitliyin əldə olunmasıdır. O baxımdan "Qafqaz evi" ideyasının da gerçəkləşməsi mümkün görünür. Vaşinqton razılaşması bunu diktə etməkdədir. Artıq region eskalasiyalardan qurtulmalı, iqtisadi əməkdaşlığın genişlənməsi zəruridir. ABŞ-nin dəhlizin açılmasında rolu da buna qarantiyadır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# İrəvana "ev tapşırığı"- sərhəd kəşfiyyatçıları evlərinə qayıdır

## Ermənistan ən müxtəlif bəhanələrlə onların qalmasını istəyirdi, amma...



**Ermənistan Azərbaycanla sərhədə yerləşdirilmiş Avropa İttifaqının (Aİ) müşahidə missiyası (EUMA) fəaliyyətinə xitam vermək öhdəliyi götürüb. Saziş layihəsində tərəflərin bir-birinə qarşı güc tətbiq etməmə və ya güc tətbiqi ilə hədələməmə öhdəliyi ilə yanaşı, öz ərazilərini üçüncü dövlətlərin digər tərəfə qarşı təcavüzü üçün istifadəyə yol verilməməsi müddəasının əks olunması mövcud regional reallıqlar və bölgədə olan hərbi mövcudluq kontekstində xüsusi əhəmiyyət kəsb edir.**

Belə ki, Azərbaycanda hər hansı bir üçüncü tərəfin hərbi mövcudluğu olmadığı halda, Ermənistanda hərbi mövcudluq olması fonunda, bu öhdəliyin layihədə əks olunması təsadüfi hesab edilməməlidir. Eyni qaydada saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrinin yerləşdirməməklə bağlı öhdəliyi xüsusi diqqət tələb edir. Məlum olduğu kimi, məhz bu element saziş layihəsində ən son mərhələyə kimi açıq qalan məsələlərdən biri idi və Ermənistan tərəfi müxtəlif bəhanələrlə bu müddəaya razılıq vermək istəmirdi.

Sözügedən müddəa hazırda Ermənistan ərazisində yerləşdirilmiş Aİ-nin müşahidə missiyası kontekstində xüsusi əhəmiyyət kəsb edir və Ermənistan tərəfinin bu missiyanın fəaliyyətinə xitam vermək öhdəliyini ehtiva edir. Ermənistan bunu uzada bilərmi?

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı** "Yeni Müsavat"a söylədi ki, Azərbaycanla Ermənistan arasında paraflanmış sazişdə yer alan "sərhədə hər hansı üçüncü tərəfin qüvvələrinin yerləşdirilməməsi" və "öz ərazilərinin digər tərəfə qarşı təcavüz üçün istifadəsinə yol verilməməsi" müddəaları regionumuzun təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir: "Bu bəndlər bölgədə uzun illərdən bəri davam edən qeyri-sabitlik faktorlarının aradan qaldırılmasına, hərbi risklərin minimuma endirilməsinə və davamlı sülhün möhkəmləndirilməsinə xidmət edir. Məlum olduğu kimi, Azərbaycanda hər hansı bir üçüncü dövlətin hərbi mövcudluğu yoxdur. Lakin Ermənistan ərazisində hələ də xarici hərbi kontingent və o cümlədən Aİ-nin müşahidə missiyası fəaliyyət göstərməkdədir. Həmin missiyanın fəaliyyəti bu zamana qədər açıq şəkildə regionda gərginliyi artırmağa xidmət edib. Onların provokatif addımları, silahlı patrul xidməti və mütəmadi olaraq Silahlı Qüvvələrimizin mövqelərini müşahidə etməsi prosesin fərqli məqsədlərə xidmət etdiyini aşkar edir. Lakin saziş layihəsinin 7-ci maddəsi, məhz bu reallığı nəzərə alaraq, Ermənistanın həmin qüvvələri sərhəddən çıxarmaq və missiyaya xitam vermək öhdəliyini qoyur.

Ermənistanın bu müddəanı icra etməsi beynəlxalq hüququn və imzalanmış razılaşmaların tələbidir. Əgər Ermənistan bu öhdəliyi gecikdirməyə, yaxud müxtəlif bəhanələrlə uzatmağa cəhd edərsə, bu, təkcə sülh prosesinə zərbə vurmaq deyil, həm də Azərbaycana qarşı etimadsızlıq mühitini davam etdirmiş olar. Azərbaycan tərəfi hər zaman sülh gündəliyinə sadiqliyini nümayiş etdirib və razılaşdırılmış şərtlərin vaxtında, tam şəkildə icrasını tələb etməkdə haqlıdır. Ermənistan anlamalıdır ki, sazişə əməl etmək diplomatik məsələ olmaqla yanaşı, həm də bölgədə sabitliyin və qarşılıqlı etimadın yeganə təminat yoludur. Hesab edirəm ki, Nikol Paşinyan administrasiyası Vaşinqton görüşünün nəticələrini reallaşdırmaq istiqamətində prinsipiallıq nümayiş etdirəcək və hər hansı bir arzuolunmaz ritorikaya meyillənməyəcək. Cənab Prezident İlham Əliyevin qətiyyətli və praqmatik diplomatiyası sayəsində imzalanan bu sənəd, regionumuzda yeni təhlükəsizlik mühitinin bünövrəsini qoyur. İndi əsas məsələ Ermənistanın üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirməsidir".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov** vurğuladı ki, Ermənistan daxilində və diaspor dairələrində mövcud olan müəyyən siyasi qüvvələr üçün Aİ missiyasının bölgədə qalması strateji əhəmiyyət daşıyır: "Bu qüvvələr missiyanı Qərbin bölgədəki təsirinin simvolu və Ermənistan üçün əlavə təhlükəsizlik zəmanəti kimi görürlər. Onların hesabına görə, missiyanın çıxarılması Ermənistanı daha açıq şəkildə Azərbaycanla üz-üzə qoyar və bu, daxili siyasi rəqiblərin hökuməti zəiflətmək üçün istifadə edə biləcəyi bir situasiya yaradar. Bu səbəbdən belə dairələr texniki və prosedur maneələr yaratmaqla, məsələn, missiyanın mandatının uzadılması, təhlükəsizlik şəraitinin tam bərpa olunmadığı barədə bəyanatlar verməklə prosesin yavaşdılmasına çalışa bilərlər.

Ermənistanın Aİ müşahidə missiyasını çıxarma öhdəliyinin icrası təkcə hüquqi mətnin tələblərinə bağlı deyil, həm də daxili siyasi qüvvələr arasındakı balans, beynəlxalq dəstək mərkəzlərinin mövqeyi və bölgədəki yeni güc reallıqları ilə sıx bağlıdır. Azərbaycan üçün əsas məsələ bu öhdəliyin yalnız kağız üzərində qalmasının qarşısını almaq, icra müddətinin və mexanizmlərinin sənəddə dəqiq göstərilməsinə nail olmaqdır. Çünki prosesin uzadılması riski realdır və bu riskin aradan qaldırılması üçün diplomatik və hüquqi təzyiq alətlərindən paralel şəkildə istifadə olunmalıdır. Ermənistanda indi əvvəlki kimi vaxt qazanmaq imkanı yoxdur, lakin bu, bütün maraqlı qüvvələrin eyni mövqedə olduğu anlamına gəlmir. Sülhün real və dayanıqlı olması üçün bu məsələnin tez və birmənalı həlli zəruridir".

**Milli Məclisin deputatı Hikmət Babaoğlu** "Cebheinfo.az"-a açıqlamasında bildirib ki, avqustun 8-də Vaşinqtonda paraflanmış sülh sazişinin 17 maddəlik bəndlərində sülhlə bağlı Azərbaycanı narahat edən bütün məsələlər öz əksini tapıb. Deputat qeyd edib ki, hazırda Ermənistan iki istiqamətdə gecikmədən addımlar atmalıdır: "Avqustun 8-də Vaşinqtonda paraflanmış sülh sazişinin 17 maddəlik bəndlərindən biri də Azərbaycan-Ermənistan sərhədində üçüncü qüvvələrin yerləşdirilməməsidir. Ermənistan bunu qəbul edib. Mənə elə gəlir ki, hazırda Ermənistan iki istiqamətdə gecikmədən dərhal addımlar atmalıdır. Bunlardan birincisi, paraflanmış sazişdə qeyd olunduğu kimi, tərəflərin bir-birinə qarşı ərazi iddiasının olmaması məsələsidir. İlk növbədə Ermənistan öz konstitusiyasından bu məsələni çıxarmalı və artıq referendum hazırlıqlarına başlamalıdır. Çünki Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası mövcuddur".

Hikmət Babaoğlunun sözlərinə görə, nəticə etibarilə bunlar Ermənistanın "ev tapşırıqları"dır və Azərbaycan tərəfi əmindir ki, ən qısa zamanda bu məsələlər reallaşacaq: "İkincisi, ATƏT-ə müraciət edilərək Azərbaycan və Ermənistan Xarici İşlər nazirliklərinin birgə təşəbbüsü ilə Minsk Qrupunun buraxılmasıdır. Eyni qaydada Ermənistan da Avropa İttifaqına müraciət edərək sərhəddə yerləşmiş Avropa Monitorinq Missiyasının dərhal sərhəddən geri çağırılması üçün addımlar atmalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Çinin "Tramp yolu"na susqunluğunun iki səbəbi

## Ekspert: "Pekinin susqunluğu narazılıq yox, razılıq əlamətidir"

**ABŞ-də Zəngəzurla bağlı tarixi anlaşmaya Çinin mövqeyi ciddi suallar doğurdu. Hələ bu razılaşmadan çox-çox əvvəl də rəsmi Pekin Zəngəzur dəhlizinin çəkilməsində israrçı mövqeydə deyildi. Ekspertlərin indiki mövqeyi də budur ki, Pekin Rusiya ilə münasibətlərini nəzərə aldığı üçün gözləmə mövqeyi tutur. Yəni Moskvanın narazı qaldığı bu razılaşmaya Pekin "əl çalmağa" tələsmir. Çinin hazırkı vəzifəsi qlobal liderliyə nail olmaqdır. Amerika Birləşmiş Ştatları ilə rəqabətdə Çin üçün Zəngəzur keçidi olmadan da yarışması mümkündür. Çinin ticarətinin 90%-i dəniz və okeanlar, yalnız 10%-i quru yollar vasitəsilə keçirilir. O səbəbdən bəzi analitiklər hesab edir ki, Çin bu anlaşmaya xüsusi "diqqət yetirmədiyi" təəssüratı yaratmaqda maraqlıdır.**

Çinin Rusiya və İrandan fərqli olaraq susqunluq nümayiş etdirməsi nə ilə bağlıdır? Zəngəzur dəhlizinin açılması Çinə sərf edir? Edirsə, açıq dəstək ifadə etməməyi Rusiyanı və İranı narazı salmaq istəmədiyindən irəli gəlir?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri arasında imzalanmış memorandumun önəmli maddələrindən biri Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Çox müzakirələrə və mübahisələrə səbəb olan məsələ artıq həll olunmaq üzrədir: ""Tramp yolu" adı altında mediada dolaşan fikirlər öz təsdiqini tapdı. ABŞ-nin şirkəti Ermənistan ərazisində 99 illiyinə torpağı icarəyə götürəcək və buraya sərmayə yatırmaqla avtomobil və dəmiryolu xətlərinin çəkilişinə dəstək göstərəcək. Sonrakı periodda isə təhlükəsizlik zəmanəti verəcək. Bu, tarixi nailiyyət hesab oluna bilər. Ermənistan öz suveren hüquqlarından istifadə edərək ABŞ ilə belə razılaşma imzaladı. Bu razılaşma dərhal İran və Rusiya tərəfindən neqativ qarşılandı. Böyük maraq doğuran dünyanın super güclərindən biri olan Çinin mövqeyidir. Çünki Çin Azərbaycanla və Ermənistanla ikitərəfli müstəvidə sıx əlaqələr qurmaqda maraqlıdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasına çox mühüm səfəri həyata keçirilib və səfər zamanı ikitərəfli mühüm sənədlər imzalanıb. Bununla ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qalxdı. Hesab edirəm ki, hazırda Çinin susqunluğu narazılıq yox, razılıq əlamətidir".

Ekspert qeyd etdi ki, Çin böyük tarixi olan və iqtisadiyyatının təhlükəsizliyinə xüsusi həssaslıqla yanaşan dövlətdir. Çin üçün yüklərin təhlükəsiz şəraitdə ötürülməsini təmin edən və edəcək marşrutun mövcudluğu önəmli xarakter daşıyır: "ABŞ kimi fövqəldövlət əgər Zəngəzur dəhlizinin təhlükəsizliyinə zəmanət verəcəksə, bu, Çin tərəfindən də müsbət qarşılanacaq. Çin bütün risklərin aradan götürülməsinin tərəfdarıdır və Çinin "Kəmər-yol konsepsiyası" da bu siyasətə əsaslanır ki, etibarlı və dayanıqlı, təhlükəsizlik arxitekturası olan ərazilərə sərmayə yatırılması daha məqsədəuyğundur. Ona görə də Mərkəzi Asiyada ərazi mübahisələrinin həll olunmasında Çinin payı var. Hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasından sonra Çin Zəngəzur dəhlizindən faydalanacaq. Çin məhz bunu gözləyir. Çin üçün iqtisadi əlaqələr önəmlidir"

❑ **Etìbar SEYİDAĞA, "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 141 (8751) 13 avqust 2025

# Qəbul imtahanlarında daha bir "ÇP"

## İmtahanlarda texnoloji fırıldaqlıq və ya yeni dövrün "şparqalka" problemi...

**"Ötən ay qəbul imtahana giriş zamanı iştirakçıların üzərlərində komplekt halda xüsusi ötürücü qurğuların ("Mifi" aparatı, mikroqulaqlıq, telefon, kamera və s.) aşkarlanması və bununla bağlı Dövlət İmtahan Mərkəzinin DTX-ya müraciət etməsi haqda xəbər vermişdik. Bildirilirdi ki, qəbul imtahanlarında müsbət nəticə əldə etmək məqsədilə bir sıra abituriyentləri xüsusi gizli texniki avadanlıqlar komplekti (mikroqulaqcıq, mikrokamera, mini telefon, naqil, Mi-Fi routeri və s.) ilə təchiz edən şəbəkə ifşa olunub. sözügedən faktlarla bağlı müvafiq istintaq davam etdirilir.**



25-27 iyun tarixlərində mərkəzləşdirilmiş üsulla lisey və gimnaziya imtahanında sualların əvvəlcədən müəyyən şagirdlər tərəfindən əldə olunması ehtimalları yaranıb". Bu sözləri jurnalistlərə açıqlamasında Təhsil İnstitutunun Xüsusi istedadlı uşaqlarla işin təşkili şöbəsinin müdiri **Tural Alışov** deyib. Tural Alışov qeyd edib ki, hazırda bununla bağlı araşdırmalar aparılır: "Bu ehtimallar üçün Elm və Təhsil Nazirliyi geniş miqyaslı araşdırma aparılır. Və indi də bu araşdırmalar davam edir".

O bildirib ki hazırda valideynlərlə tək-tək görüşlər keçirilir: "Təkrar imtahan təşkil olunmayıb. Sadəcə, həmin şagirdləri yenidən yoxlamaq üçün əvvəlki imtahana bənzər suallar hazırlanıb. Verilən suallar çox sadə olub. Hər bir şagirdə 10 sual təqdim edilib ki, onların ilkin imtahanda topladıqları nəticənin heç olmasa bir hissəsini təkrar cavablandıra bilib-bilmədikləri müəyyən edilsin. Məsələn, əgər bir şagird birinci imtahanda 45 düzgün, 0 səhv cavab yazıbsa, biz ikinci yoxlamada ondan 10 düzgün, 0 səhv nəticə tələb etməmişik. Əgər şagird nəticəsinin müəyyən hissəsini təsdiq edə bilibsə, onun imtahan nəticəsi ləğv edilməyib. Lakin bəzi şagirdlərin nəticələrində kifayət qədər fərqlər aşkar olunub. Qeyd etmək lazımdır ki, təqdim olunan suallar həmin imtahanda cavablandırdıqları suallara bənzər idi".

Göründüyü kimi, müasir texnologiyalar inkişaf etdikcə "şparqalka"ların növü də dəyişir və saxta bilik əsasında qiymət almağa çalışan şəxslər daha mürəkkəb texniki vasitələrdən istifadə edirlər. Bəs bu cür halların qarşısını almaq üçün hansı sistemli tədbirlər görülməlidir? Təhsil sahəsində texnoloji fırıldaqlara qarşı effektiv mübarizə necə təşkil olunmalıdır?

Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru **İlqar Orucov** mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "İmtahanlarla bağlı məqamlar, təbii ki, xoşagəlməzdir və bu kimi hallar təkcə Azərbaycan üçün spesifik deyil. Dünyanın müxtəlif ölkələrində də insanlar bəzən imtahanlara daxil olarkən xoşagəlməz, arzuolunmaz və ümumilikdə imtahan prosedurlarına zidd olan üsullardan istifadə edirlər. Xatırlayırsınızsa, hətta sovet dövründə çəkilmiş məşhur bir filmdə də imtahan prosesində qurğudan istifadə edilməsi komediya janrında, amma eyni zamanda prosesin nə qədər pozuntu və qanunazidd olduğunu göstərən bir süjetlə təqdim olunurdu. Əlbəttə, burada söhbət hüquqa zidd əməllərdən gedir.

Digər tərəfdən, bunun komediya variantını biz vaxtilə izləmişik və bilirik ki, insanlar hər zaman bu kimi xoşagəlməz vasitələrdən istifadə edərək imtahanda daha çox uğur qazanmaq istəyiblər. Əvvəllər, təbii ki, indiki resurslar və texnologiyalar yox idi. Yadınızdadırsa, yaşlı nəsil daha yaxşı xatırlayar ki, vaxtilə "şparqalkalar" hazırlanırdı və onlardan istifadə edərək imtahanlara girənlər olurdu. Yəni bu hallar həmişə mövcud olub.

Amma indi dünya dəyişib. Müasir texnologiyalar bu kimi halların baş verməsi üçün şəraiti bir qədər də "münbitləşdirib". Ənənəvi üsullar artıq geridə qalıb. İndi isə mikroqulaqcıq, telefon, kamera, Wi-Fi və s. kimi texnoloji yeniliklərdən istifadə edərək həmin neqativ, köhnə üsulların yerini daha müasir "qaydapozma" vasitələri tutub.

Əlbəttə, təhsil sahəsinə cavabdeh olan dövlət qurumları bu məsələlərdə qətiyyətlə mübarizə aparırlar. Xüsusi xidmət orqanları artıq bu işi araşdırır. Əgər bu məlumatlar dövlətə çatdırılıbsa, deməli, ortada real faktlar var. Araşdırma nəticəsində burada cəzaya layiq olan şəbəkə ifşa olunacaq və onlar qanun qarşısında cavab verəcəklər".

İlqar Orucov qeyd edir ki, hazırda bütün mümkün ehtimallar, hətta bu gün təsəvvür etmədiyimiz ehtimallar üzərində də mübarizə tədbirləri görülür: "Təbii ki, belə hallara yol verənlər mütləq şəkildə cəzalandırılmalıdır. Burada Elm və Təhsil Nazirliyinin tərkibində fəaliyyət göstərən Təhsil İnstitutunun nümayəndəsinin fikri ifadə olunur. Nə qədər ki, imtahanlar var, bu cür xoşagəlməz halların başvermə ehtimalı da olacaq.

Yenə də qeyd etmək istəyirəm ki, gələcəkdə də bəzi insanlar daha fərqli üsullar tətbiq edərək öz çirkin əməllərini davam etdirəcəklər. Bu şəbəkənin ifşa olunması o demək deyil ki, bununla məsələ bitəcək. Mümkün olan bütün qabaqlayıcı tədbirlər həyata keçirilir və təbii ki, hansısa xoşagəlməz hal aşkarlanarsa, həmin şəxslərin müəyyən edilməsi, günahkarların tapılaraq müvafiq şəkildə cəzalandırılması prosesi bundan sonra da davam etdiriləcək. İnsanlar, sadəcə, anlamalıdırlar ki, bu, doğru yol deyil. İmtahanda uğur qazanma yolu və onun "formulası" artıq illər, hətta yüz illərdir ki, bəllidir. Bu formuldan kənar üsullarla imtahanda uğur qazanmaq təkcə xoşagəlməz deyil, həm də cinayət əməlidir. Buradan həm də valideynlərimizə və imtahanlara qatılan gənclərimizə çağırış edirəm: diqqətli olsunlar, bu cür tələlərə düşməsinlər, hansısa qrupların çirkin niyyətlərinin qurbanına çevrilməsinlər. Yalnız öz biliklərinə, öz bacarıqlarına arxalanaraq imtahanlarda iştirak etsinlər. Onlar bilməlidirlər ki, bu kimi halların sonu yoxdur".

Azərbaycan İnternet Forumunun rəhbəri **Osman Gündüzün** də mövzu ilə bağlı fikirləri diqqət çəkir: "Bir zamanlar imtahanlarda hansısa texniki vasitələrdən istifadə edənlər barmaqla sayılardı. DİM-in detektorları onları asanlıqla aşkar edirdi. Amma indi vəziyyət dəyişib. Görünür ki, bəzi texnoloji işbazlar bu işi sistemli şəkildə biznes xidmətinə çeviriblər. Tələb var, təklif də hazırlanır: kim imtahanda uğur qazanmaq istəyirsə, "gizli texnologiya paketi" hazırdır - mikroqulaqcıq, mikrokamera, mini telefon, naqil, Mi-Fi routeri və daha nələr. Əldə etdiyim məlumata görə, məhz belə xidməti təklif edən bir şəbəkənin üzvləri artıq məhkəmə qərarı ilə saxlanılıb, cinayət işi açılıb və istintaq aparılır. Abituriyentlərdən nəticələri ləğv olunanlar var. Əməliyyat DİM-in müşahidələri və rəsmi müraciəti əsasında DTX tərəfindən həyata keçirilib. Görünür ki, qeyd olunan orqanlar bu tip halların artmasını müşahidə ediblər və bunun mərkəzləşmiş formada ola biləcəyindən şübhələniblər.

Yəni ola bilər ki, texniki avadanlıqlarla imtahana gələnlərin müəyyən təbəqəyə, müəyyən qrupa və ya regiona bağlı olması şübhə doğurub, yaxud elə imtahan prosesində özünü şübhəli aparanların çox olması müşahidə kameraları və süni intellektlə müəyyən edilib. Əlbəttə, gizli avadanlıqlardan istifadə edənlər məcburdur ki, tez-tez qulağa toxunsunlar, paltarda nə isə qurdalasınlar, hansısa süni hərəkətlər etsinlər, mikroqulaqcıqlardan gələn səslər ətrafda əks-səda yaratsın və s. Burada ən diqqətçəkən məqam isə budur: artıq bu tip fırıldaq imtahan verənin özünün şəxsi təşəbbüsü ilə deyil, xidmət olaraq, biznes olaraq təklif edilən "texnoloji dəstək paketi" kimi təqdim olunur. Yəni bu bir fərdi fırıldaq yox, kütləviləşən, pullu və təşkilatlanmış texnoloji cinayət modelidir. Əlbəttə, burada DTX tərəfindən bu şəbəkənin ifşası və məsuliyyətə cəlb edilmələri təqdirəlayiq bir addımdır. Amma bu hadisə bir daha göstərdi ki, məsələ, sadəcə, bir neçə abituriyentin fırıldağa əl atmasında deyil - texniki - texnoloji savadlı şəxslərin - təşkilatçıların öz biliklərini cinayətə yönəltməsindədir. Bir neçə gün öncə də kiber sahədə cinayət törətmiş bacarıqlı bir gəncin məhkəmə prosesi cəmiyyətin gündəmində idi. Mən yenə o fikirdəyəm, dövlət, cəmiyyət və xüsusilə təhsil və innovasiya qurumları səfərbər olmalıdır ki, bu tip texnoloji potensiallı insanlar fırıldağa və cinayətə yox, ölkənin inkişafına xidmət edən layihələrə üz tutsunlar və cəlb olunsunlar".

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

**"Azərbaycan Avropada məhbus sayına görə ikinci yerdədir. Şərqi Avropa ölkələrində məhbusların sıxlığına görə birinci yeri Türkiyə tutur". BBC-nin Azərbaycan xidmətinin məlumatına görə, Avropa Şurasının həbsxanalarla bağlı hesabatında belə deyilir.**



# Avropa Şurasının Azərbaycan həbsxanaları hesabatı

## Narkotikə görə həbslərin artması ölkəmizin adını bu cür hesabatlarda ön plana çıxarır; hüquqşünas "Qətimkan tədbirlərinin seçilməsində hələ də həbsə üstünlük verildiyini görürük..."

Qeyd edək ki, Avropa Şurasının illik kriminal statistikası Avropa Həbsxana Statistikaları hesabatında dərc olunur. Bu hesabat digər məsələlərlə yanaşı, Avropa Şurasına üzv dövlətlərdə məhbusların sayı, habelə həbsxanalarda ölüm halları və həbsxana sistemlərinin digər aspektləri haqqında məlumat verir.

Avropa Şurasının İllik Cəza Statistikası - SPACE I adlı hesabatda deyilir ki, Azərbaycan əhalisinin təxminən 27 min nəfəri həbsdədir, onlardan 45 faizi narkotiklə əlaqədar həbs olunub. "Azərbaycan həbsxanalarındakı məhbusların az qala yarısı narkotik ittihamı ilə həbs olunub"- hesabatda deyilir.

Yada salaq ki, Azərbaycan ötən ilin yanvarından, yəni təxminən 20 aya yaxındır Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətini dayandırıb. Buna səbəb AŞPA-nın Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiqləməməsi olub. Rəsmi Bakı bunu AŞPA-nın "qırmızı xətti keçməsi" kimi qiymətləndirib və bir neçə ay sonra Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin uzadılmasının əleyhinə səs verən 76 deputatı "arzuolunmaz şəxs" elan edilib.

Rəsmi Bakı bu qurumla əlaqələri bərpa etməyi düşünmür, "hələ də Azərbaycana qarşı tamamilə obyektivlikdən uzaq olan mövqe sərgiləməkdə" ittiham edir. "Azərbaycan Avropa Məhkəməsinin çıxardığı qərarları icra etməyəcək". Bunu isə Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən beynəlxalq forumda çıxışı zamanı deyib.

Dövlət başçısı bunun səbəbini Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması ilə izah edib.

"Nümayəndə heyəti assambleyanın iclaslarında iştirak etməsə və Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) hakimlərinin seçilməsinə səs verə bilməsə, bu məhkəmənin Azərbaycanla bağlı çıxardığı qərarlar etibarsız sayılacaq. Biz səsvermə hüququndan məhrumuq. Biz bu hakimlərə səs verməmişik və onların kim olduğunu da bilmirik", - İ. Əliyev qeyd edib.

Qeyd edək ki, Prezident bundan əvvəl də ölkəmizin Avropa Şurasından tamamilə çıxa biləcəyi barədə xəbərdarlıq etmişdi.

Göründüyü kimi, Avropa Şurası ilə bağlı məsələ hələ müəmmalı qalır. Azərbaycanın adının bu cür hesabatlarda mənfi kontekstdə hallandırmaqla, ümumiyyətlə,qurumа qayıtmamasına şərait yaradırlar.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** "Yeni Müsavat"a deyib ki, bu, təkcə rəqəmlər toplusu deyil, həm hüquq-mühafizə siyasəti, həm də məhkəmə təcrübəsi üçün ciddi xəbərdarlıqdır: "Biz son illərdə ölkədə məhkəmə-hüquq islahatlarının elan olunduğunu, Prezidentin bu istiqamətdə mühüm fərman və sərəncamlar imzaladığını gördük. Xüsusilə 2019-cu ildə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman, eləcə də alternativ cəza tədbirlərinin genişləndirilməsi ilə bağlı qərarlar ölkənin hüquq siyasətində humanist yanaşmanın gücləndirilməsini nəzərdə tuturdu. Məqsəd həm məhkəmə yükünü azaltmaq, həm də azadlıqdan məhrumetmə tədbirinin həddən artıq tətbiqinin qarşısını almaq idi. Amma reallıqda qətimkan tədbirlərinin seçilməsində hələ də həbsə üstünlük verildiyini görürük. Bu, xüsusilə narkotik ittihamlarında daha qabarıqdır. Təcrübədə istintaq orqanları alternativ təminat tədbirlərindən ev dustaqlığı, girov, zaminlik daha az istifadə edir. Bu yanaşma bəzən həbsin özünü məqsəd kimi formalaşdırır, halbuki qanunvericilikdə "son çarə" prinsipi açıq şəkildə təsbit olunub".

Natiq Ələsgərov deyib ki, əgər islahatların elanında göstərilən məqsədlərə çatmaq istəyiriksə, məhkəmələr həqiqətən də həbsə alternativ tədbirlərin tətbiqinə üstünlük verməlidir: "Xüsusilə narkotik ittihamları üzrə işlərdə bu tendensiya daha qabarıqdır. İstintaq orqanları bəzən həbsin zəruriliyini əsaslandırmadan, alternativ təminat vasitələrini araşdırmadan məhkəmələrdən həbs qərarı çıxarılmasını tələb edir. Məhkəmələr isə istisna olmaqla, bu tələbləri avtomatik təsdiqləyir. Avropa Şurası hesabatında həbsxanalardakı sıxlıq bölümündə Azərbaycanın adının ön sıralarda yer almasının birbaşa səbəbi budur. Ölkədə günahsızlıq prezumpsiyası formal xarakter daşıyır, çünki uzunmüddətli istintaq zamanı həbsin özü cəza funksiyası daşımağa başlayır. İmzalanan fərmanların məqsədi kağız üzərində qalır, icra mexanizmləri real dəyişiklik yaratmır. Üstəlik, Azərbaycanın Avropa Şurası ilə münasibətlərinin ən gərgin dövründə bu cür statistikanın açıqlanması, beynəlxalq aləmdə ölkə haqqında formalaşan mənfi təsviri gücləndirir. Əgər həqiqətən də Avropa Şurası hesabatlarının siyasi məqsədlər üçün istifadə olunduğunu düşünürüksə, buna cavab yalnız ritorika ilə deyil, daxili hüquq sistemində real dəyişikliklərlə verilməlidir. Narkotiklə bağlı həbs siyasətinin yenidən nəzərdən keçirilməsi, alternativ qəti-imkan tədbirlərinin tətbiqinin məhkəmələr üçün real prioritetə çevrilməsi, istintaqın şəffaflığı və müdafiə hüququnun tam təminatı baş verməlidən, biz hər il eyni siyahılarda eyni mövqedə qalacağıq. Bu, yalnız həbsxanalardakı sıxlığı azaltmaqla bitmir, həm də insan hüquqlarına hörməti artırır, beynəlxalq hesabatlarda ölkəmizin mövqeyini yaxşılaşdırır. Hazırkı vəziyyət, xüsusilə Avropa Şurası ilə münasibətlərin gərgin fonunda, ölkəmizi həm hüquqi, həm də siyasi müstəvidə çətin vəziyyətə salır. Narkotik ittihamlarının çoxluğu, qəti-imkan tədbirlərində balansın pozulması və islahatların praktik nəticələrinin zəifliyi, bütün bunlar islahatların davamlılığına mane olan əsas problemlərdir. Bu istiqamətdə real dəyişiklik baş verməsə, biz bu tip hesabatlarda yenə də ön sıralarda yer alacağıq. Bu isə nə hüquqi dövlət prinsiplərinə, nə də ölkənin beynəlxalq imicinə uyğundur.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Muxtar Babayevə yeni vəzifə verildi




**Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayevə yeni vəzifə verilib.**

Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

M.Babayev Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü təyin edilib.

Qeyd edək ki, Muxtar Babayev 2018-2025-ci illərdə ekologiya və təbii sərvətlər naziri vəzifəsində çalışıb. O, bu ilin fevral ayında Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi təyin olunub.

# Saleh Məmmədov rəisi işdən çıxardı




**Azərbaycan Avtomobil Yollari Dövlət Agentliyinin (AAYDA) tabeçiliyindəki "4 №-li Yol İstismari" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) direktoru vəzifəsindən azad edilib.**

"Qaynarinfo"nun məlumatına görə, AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədovun müvafiq əmri ilə Həsənəliyev Orduxan Əsgər oğlu işdən çıxarılıb.

Onun yerinə Zeynalov Arzu Aydin oğlu təyin edilib. Qeyd edək ki, Orduxan Həsənəliyev 2019-cu ildə "4 №-li Yol İstismari" MMC-nin direktoru vəzifəsinə gətirilmişdi.

# Seyidağaya 12 illik həbs

**Beyləqanda yolda dava zamanı həmkəndlisini döyərək öldürməkdə təqsirləndirilən Seyidağa Rüstəmlinin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Esmira Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, təqsirləndirilən Seyidağa Rüstəmli 12 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə ötən il oktyabrın 11-də baş verib. İttihama görə, Seyidağa Rüstəmli içkili halda ictimai asayişi pozaraq avtomobil yolunu bağlayıb və sürücülərlə mübahisə edib. Bunun qarşısını almaq üçün Ramil Kərimov Seyidağaya yaxınlaşıb və onu ərazidən uzaqlaşdırmağa çalışıb. Bu zaman Ramil Kərimovla Seyidağa Rüstəmli arasında mübahisə yaranıb. Seyidağa Ramilin sinə, üz və baş nahiyələrinə yumruq vurub. Ramil Kərimov bundan sonra xəstəxanaya yerləşdirilib və oktyabrın 22-də orada vəfat edib.

Təqsirləndirilən Seyidağa Rüstəmliyə Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərərvurma, zərərçəkmişin ölümünə səbəb olma), 221.2.2-ci (hakimiyyət nümayəndəsinə müqavimət göstərməklə xuliqanlıq törətmək) maddəsi ilə ittiham edilib.

YENİ MÜSAVAT
N 141 (8751) 13 avqust 2025



## Azərbaycanda kreditlərlə bağlı yenilik

**Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti 12 noyabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Kredit təşkilatlarının borcalanları haqqında məlumatın Mərkəzləşdirilmiş Kredit Reyestrinə verilməsi Qaydası"nda dəyişiklik edib.**

Bununla bağlı AMB-nin sədri Taleh Kazımov yeni qərar imzalayıb. Qərara əsasən, yeni kreditlər, eləcə də kredit ödənişləri barədə məlumatlar növbəti 1 iş günü ərzində, borcalanın maliyyə vəziyyətini əks etdirən hesabatlarla bağlı məlumatlar istisna olmaqla digər məlumatlar hər təqvim ayının sonuncu gününə olan vəziyyətə növbəti ayın ilk 4 iş günü ərzində, borcalanın maliyyə vəziyyətini əks etdirən hesabatlarla bağlı məlumatlar isə təqvim ili ərzində azı 1 dəfə Mərkəzləşdirilmiş Kredit Reyestrinə (MKR) təqdim ediləcək. İndiyə qədər yeni kreditlərlə bağlı məlumatlar hər təqvim ayının 1-nə olan vəziyyətə görə növbəti 4 iş günü ərzində təqdim edilirdi.

Bundan başqa, MKR-də olan məlumatlara hər hansı düzəliş məlumat təchizatçılarının özləri tərəfindən, habelə məlumat təchizatçısının yazılı, o cümlədən MKR vasitəsilə elektron formada müraciəti və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasında aparılacaq. İndiyədək düzəlişlər yazılı müraciət və məhkəmə qərarı əsasında aparılırdı.

Həmçinin bir kredit üzrə bir neçə şəxs birgə borclu qismində çıxış etdikdə həmin şəxslərin kredit üzrə birgə borclu olduğu qeyd edilməklə həmin kredit məbləği hər borclu üzrə tam həcmdə qeyd olunacaq.

Dəyişikliklər dərc edildiyi gündən banklara münasibətdə 6 ay sonra, bank olmayan kredit təşkilatlarına və kredit ittifaqlarına münasibətdə 9 ay sonra qüvvəyə minəcək, qüvvəyə minənə qədər ödənilməmiş bütün kreditlərə şamil ediləcək.

AMB-nin Maliyyə bazarlarının hüquqi təminatı departamentinə bu Qərarın 3 gün müddətində Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsi tapşırılıb.

# Bakıda Rusiyanın iqtisadi sanksiyalarına hazırlıq

## Sanksiya təhdidindən daha çox Rusiya zərər görə bilər




**Rusiya Dövlət Dumasının deputatı Andrey Qurulev Azərbaycan mallarının ölkəyə idxalının qadağan ediləbiləcəyini istisna etməyərək deyib ki, əgər Rusiyada Azərbaycan malları olmayacaqsa, biz bundan heç nə itirməyəcəyik, amma onlar üçün vəziyyət ciddi dəyişəcək.**

Doğurdanmı, Azərbaycanın Rusiyadan iqtisadi asılılığı var? Qarşılıqlı ticarətdə potensial qadağalar hansı ölkəyə daha çox ziyan vura bilər?

Bununla bağlı **Milli Məclisin deputatı Vüqar Bayramov** iqtisadiyyat.az-a açıqlamasında öz fikirlərini bölüşüb.

Onun sözlərinə görə, hər iki ölkənin yayımladığı statistika təsdiq edir ki, idxal qadağan edilərsə, bundan uduzan tərəf Azərbaycan deyil, Rusiya olacaq: "Belə ki, 2024-cü ildə Rusiya-Azərbaycan arasında ticarət dövriyyəsi 4 milyard 799 milyon dollar olub. Azərbaycan Rusiyadan 3 milyard 621 milyon dollarlıq mal idxal edib. Rusiyaya isə 1 milyard 178 milyon dollar mal göndərmişik. Bu isə o deməkdir ki, xarici ticarətdə Azərbaycanın Rusiya ilə 2 milyard 443 milyon dollarlıq mənfi saldosu var. Yəni Rusiya Azərbaycan ilə ticarətdən yalnız ötən il 2 milyard 443 milyon dollar qazanc əldə edib. Deməli, qarşılıqlı ticarətdə istənilən qadağalar Azərbaycandan Rusiyaya daxil olan valyutanın həcmini azaldacaq. Bu isə o deməkdir ki, bundan daha çox rusiyalı iş adamları ziyan görəcəklər".

V.Bayramov qeyd edib ki, digər tərəfdən, Azərbaycanın Rusiya ixracı ölkəmizin ümumi ixracatının cəmi 4.4 faizini təşkil edir: "Deməli, 26 milyard 338 milyon dollarlıq ixracatımızın 95 faizindən çoxu Rusiyadan kənar ölkələrə yönəlib. Bu isə o deməkdir ki, reallıq heç də rusiyalı deputatın qeyd etdiyi kimi deyil. Rəqəmlər təsdiq edir ki, hətta Rusiyanın Azərbaycandan idxalı qadağan edəcəyi halda belə bu, ölkəmizin ixrac potensialına xüsusi təsir göstərməyəcək".

Deputat söyləyib ki, Rusiyadan Azərbaycana köçürülən pulların məbləğinə gəldikdə, həm əvvəlki illərdə, həm də bu ilin gerідə qalan aylarında ciddi azalmalar qeydə alınıb. Onun sözlərinə görə, 2024-cü ildə fiziki şəxslər tərəfindən Rusiyadan Azərbaycana 496 milyon 753 min dollar pul köçürülüb: "Bu isə əvvəlki illə müqayisədə 53 faiz azdır. Deməli, Rusiyadan remittensi, yəni pul köçürmə asılılığı da yoxdur. Nəzərə almaq lazımdır ki, remittensinin ÜDM-dəki payına görə Azərbaycan regionda ən yaxşı göstəriciyə malik dövlətlərdəndir. Beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, Azərbaycanda bu göstərici 3 faizdən azdır. Deməli, bu istiqamətdə Azərbaycanın nə Rusiyadan, nə də hər hansı digər bir ölkədə heç bir asılılığı yoxdur. Göründüyü kimi, hətta Rusiyanın özünün statistik rəqəmləri belə, Dumanın bəzi deputatlarının Azərbaycan ilə ticarət haqqında dediklərini təsdiqləmir".

**Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri, iqtisadçı-ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiyada bu tip bəyanatlar çox səsləndirilsə də, sanki bu fikri səsləndirənlərin iqtisadi bilikləri yoxdur: "Rusiya ilə ticarət dövriyyəmizə gəlincə, Rusiya Azərbaycana 3 dəfə çox mal satır. Bizim Rusiyaya satdığımız malın dəyəri keçən il 1 milyard dollara yaxın olub, Rusiyanın Azərbaycana satdığı malın dəyəri isə 3 milyarddan çox olub. Qadağalar qarşılıqlı olsa, Rusiya daha çox itirəcək. Sadəcə olaraq, Rusiya bu tip addımlarla Azərbaycanın suveren və müstəqil addımlarına müdaxilə etməyə çalışır. Bu, tam məntiqsiz davranışdır. Halbuki gərginliyin səbəbkarı Rusiyadır. Azərbaycan tərəfdən qaynaqlanan gərginlik yoxdur. Azərbaycana məxsus təyyarə vurulub. Baş verən hadisə ilə əlaqədar Azərbaycan bəlli hüquqi addımların atılmasını tələb edir. qarşı tərəf isə sanki gərginliyin yaranmasında maraqlı qüvvə kimi davranır".

Mütəxəssislərin fikirlərindən də göründüyü kimi, Azərbaycan iqtisadi baxımdan Rusiyadan kritik dərəcədə asılı deyil. Əksinə, ticarət balansının strukturuna baxdıqda, Rusiya Azərbaycan bazarından daha çox gəlir əldə edir. Bu, iqtisadi sanksiyalar fonunda əsas risklərin məhz Rusiya biznesinə yönələcəyini göstərir.

Digər tərəfdən, Azərbaycanın ixrac bazarlarının 95 faizindən çoxu Rusiyadan kənardadır və ölkə alternativ ticarət tərəfdaşları ilə münasibətlərini davamlı şəkildə genişləndirir. Bu, həm strateji diversifikasiya siyasətinin, həm də regional iqtisadi müstəqilliyin nəticəsidir.

Geosiyasi kontekstdə isə məsələ yalnız ticarət rəqəmləri ilə məhdudlaşmır. Rusiya-Azərbaycan münasibətləri son aylarda müəyyən gərginlik mərhələsinə keçib və iqtisadi təzyiq alətləri siyasi mesaj funksiyası daşıyır. Lakin mövcud göstəricilər göstərir ki, bu cür təzyiqlər Azərbaycanın iqtisadi sabitliyini ciddi şəkildə sarsıda bilməz.

Rusiya-Azərbaycan ticarət əlaqələrinin mövcud strukturu göstərir ki, iki ölkə arasında iqtisadi münasibətlər asimmetrik xarakter daşıyır. 2024-cü ilin rəsmi statistikası aydın şəkildə ortaya qoyur ki, Rusiya Azərbaycan bazarından xalis şəkildə daha çox qazanc əldə edir. Bu isə o deməkdir ki, idxal-ixrac münasibətlərində hər hansı birtərəfli qadağa tətbiqi ilk növbədə Rusiya biznesinə, daha sonra isə, dövlət büdcəsinə mənfi təsir göstərəcək.

Azərbaycanın ümumi ixrac strukturuna nəzər saldıqda isə Rusiyanın payı cəmi 4,4 faizdir. Yəni ixracın 95 faizdən çoxu MDB məkanından kənar bazarlara-əsasən Avropa İttifaqı, Türkiyə, Çin və Yaxın Şərq ölkələrinə yönəlib. Bu fakt ölkənin xarici ticarət siyasətində illərdir həyata keçirilən diversifikasiya kursunun nəticəsidir. İxrac marşrutlarının genişliyi və alternativ bazarların mövcudluğu iqtisadi təhlükəsizlik üçün əsas təminatlardan biridir. Pul köçürmələri (remittensiya) məsələsinə gəlincə, Azərbaycanda bu göstərici ÜDM-in 3 faizindən azını təşkil edir. Müqayisə üçün, bəzi qonşu ölkələrdə bu göstərici 10-25 faiz arasında dəyişir ki, bu da həmin ölkələri xarici maliyyə axınlarına daha həssas edir. Azərbaycanda isə daxili iqtisadi fəallığın yüksəkliyi və qeyri-neft sektorunun inkişafı nəticəsində xaricdən gələn pul axınlarına iqtisadi asılılıq minimal səviyyədədir.

Geosiyasi müstəvidə bu məsələ yalnız iqtisadi rəqəmlərlə izah olunmur. Son illər Rusiya beynəlxalq arenada müxtəlif ölkələrlə münasibətlərində iqtisadi alətləri siyasi təzyiq vasitəsi kimi istifadə edir. Azərbaycanla bağlı səsləndirilən bəzi bəyanatlar da eyni məntiqin davamı kimi qiymətləndirilə bilər. Bunuanla belə, real iqtisadi göstəricilər bu təzyiqin effektiv olmayacağını göstərir.

Həmçinin nəzərə almaq lazımdır ki, Azərbaycan son illər beynəlxalq nəqliyyat-logistika layihələrində, xüsusilə Orta Dəhliz və Şimal-Cənub istiqamətində mühüm tranzit mərkəzə çevrilib. Bu mövqe yalnız iqtisadi deyil, həm də strateji üstünlük yaradır.

**❑ Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 141 (8751) 13 avqust 2025



# Ağsuda tapılan doğranmış cəsədin "sirri"

## Toyu üçün yığdığı pulu borc adı ilə alıb sonra öldürdülər

**Bakının Nəsimi rayonu ərazisində törədilən dəhşətli qətl hadisəsinin təfərrüatı məlum olub.**

Oxu.az-ın əldə etdiyi məlumata görə, hadisə avqustun 4-də saat 4 radələrində baş verib.

Ağsu rayon sakini, 1977-ci il təvəllüdlü Fazil Feyzullayev Bakıdakı tikinti şirkətlərindən birində işləyib, Tərtər rayon sakini, 1991-ci il təvəllüdlü İsgəndər Əliyev və Cəlilabad rayon sakini Ülvi Abasovla birlikdə Nəsimi rayonu ərazisində mənzil kirayələyib. F.Feyzullayev bir müddət işləməyib və dolanacaq üçün İ.Əliyevdən borc istəyib. İ.Əliyev də otaq yoldaşına müəyyən miqdarda pul verib. F.Feyzullayev İ.Əliyevdən bu yolla 4 200 manat borc alıb. İ.Əliyev borc verən zaman bildirib ki, ona avqust ayında evlənmək üçün pul lazım olacaq. F.Feyzullayev razılaşıb ki, həmin müddətdə onun borcunu qaytaracaq.

Məlumata görə, İ.Əliyev tikinti şirkətində iş icraçısı işləyib və özünə toy etmək üçün pul yığırmış. Avqustun 1-də İ.Əliyev otaq yoldaşından borcunu istəyib. F.Feyzullayev isə borcunu qaytarmaq üçün ondan iki gün vaxt istəyib və razılaşıblar.

Avqustun 3-də İ.Əliyev yenidən pulunu istəyəndə F.Feyzullayev ondan daha bir neçə gün vaxt istəyib. İ.Əliyev isə ona avqustun 4-də rayona gedəcəyini bildirib və pulunu tələb edib. Tərəflər arasında mübahisə də yaranıb və İ.Əliyev F.Feyzullayevi söyüb. F.Feyzullayev isə avqustun 4-ü səhər saatlarında onun pulunu çatdıracağını deyib.

Bundan sonra F.Feyzullayev İ.Əliyevi qətlə yetirməyi qərara alıb və bu barədə digər otaq yoldaşı Ülvi Abasovla plan qurub evdən çıxıblar. Axşam saatlarında İ.Əliyev işdən evə gəlib və evdə heç kimin olmadığını görüb yatıb.

Gecə saat 4 radələrində evə gələn F.Feyzullayev və Ü.Abasov İ.Əliyevin yatmasından istifadə edib onu qətlə yetirmək qərarı verib. F.Feyzullayev İ.Əliyevi yatmış vəziyyətdə bıçaqlayaraq qətlə yetirib. Məlumata görə, o, İ.Əliyevin ürək nahiyəsindən çoxsaylı bıçaq zərbələri endirib. İ.Əliyevin ölməsinə arxayın olması üçün onun boğazını da kəsib.

Məlumatda qeyd edilir ki, F.Feyzullayev və Ü.Abasov İ.Əliyevi qətlə yetirəndən sonra meyiti evdə gizlədiblər. İ.Əliyevin ailə üzvləri 3 gün onunla danışa bilməyib otaq yoldaşları ilə əlaqə saxlayıblar. Otaq yoldaşları isə İ.Əliyevin istirahətə getdiyini bildirib. Hətta onlar izi azdırmaq üçün guya İ.Əliyevin evdə olan 4 min manatı da götürdüyünü bildirib.

Çarəsiz qalan ailə İ.Əliyevi axtarmaq üçün Bakıya gəlməli olub. Bundan xəbər tutan F.Feyzullayev və Ü.Abasov meyiti doğrayaraq evdən çıxarmaq qərarına gəliblər. Onlar meyiti doğrayaraq 4 sellofan torbaya yığıb evdən çıxarıb və paytaxtın "Şamaxı yolu" adlanan ərazisindən Ağsu rayonuna gedən taksilərdən birinə əyləşib yola düşüblər. F.Feyzullayev və Ü.Abasov Ağsu dolaylarında taksidən düşüb kafelərdən biri istiqamətinə gedib ki, izi yayındıra bilsinlər. Kafelərin birinin ərazisindən meşə zolağına keçən dostlar meyiti yığdıqları iki torbanı meşədən dərəyə atıb. Daha sora onlar həmin meşə zolağı ilə rayon ərazisindəki Cavanşir gölünə gəlib, qalan iki torbaya isə ağır daş bağlayıb gölə atıblar.

Mərhumun ailə üzvləri onun yaşadığı mənzilə gəlsə də, evdə heç kimi görməyib polisə şikayət ediblər. Polisin keçirdiyi əməliyyat nəticəsində F.Feyzullayev və Ü.Abasov saxlanılıblar. Onlar ilkin ifadələrində qətli etiraf ediblər.

Saxlanılan şəxslər istintaqa təhvil veriliblər.

❑ **"Yeni Müsavat"**






# Barəsində cinayət işi açılan aparıcı kimdən şübhələnir?

## **Aytən Səfərova:** "Bunun arxasında hansısa qüvvələr dayanıb"

**Aparıcı Aytən Səfərova barəsində keçirdiyi yol qəzası ilə bağlı cinayət işi başlanıb, istintaq gedir.**

Ötən ilin aprelində Xətai rayonu, 8 Noyabr prospekti ilə Sadıqcan küçəsinin kəsişməsində aparıcının idarə etdiyi "Hyundai Accent" markalı avtomobillə "Hyundai İX-35" markalı avtomobilin toqquşması Ayxan Əliyev adlı gəncin ölümü ilə nəticələnib.

Ekspertiza və bir ilə yaxın davam edən istintaq araşdırmalarından sonra belə nəticəyə gəlinib ki, baş vermiş qəzada həm "Hyundai İX-35"in sürücü İsmayıl Məmmədovun, həm də jurnalistin təqsiri olub.

"Cebheinfo.az"-a açıqlama verən Aytən Səfərova bildirib ki, bəzi qüvvələr insanlarda çaşqınlıq yaratmaq istəyir: "Bunu qəsdən edən insanlar var. Mən bu məsələdə günahsız olduğumu bilirəm, bunu sübut edən kadrlar da var. Orada sürət həddi yazılıb, o sürət həddini necə müəyyənləşdiriblər, haradan çıxarıblar, bu da böyük sual doğurur. Sürücülük vəsiqəsinə gəldikdə, bir həftədən bir neçə gün çox sürücülük vəsiqəmin vaxtı bitibmiş. Azərbaycanda ən maraqlı məsələlərdən biri odur ki, texniki baxış bitən kimi sürücüyə, sığorta müddəti bitən kimi isə avtomobil sahibinə dərhal cərimə yazılır. Adamın başı o qədər qarışıq olur ki, hansı sənədin vaxtının nə qədər olduğu unudulur".

Aparıcı qeyd edib ki, ədalətin öz yerini tapacağına inanır: "Hadisə ilə bağlı kadrlar açıqlanacaq, ictimaiyyət də hər şeyi öz gözü ilə görəcək. Mənim orada cinayət tərkibli əməlim yoxdur. Bunu demişəm, deyirəm və deyəcəyəm də. Mən və vəkilim hazırıq. Bu, cəmiyyətdə çaşqınlıq yaratmaq üçün atımış addımdır, yəqin ki, bunun arxasında hansısa qüvvələr dayanıb.

Eyni zamanda məhkəmə sisteminə, hakimə təsir etmək məqsədi daşıyır. Bəziləri ehtiyat edirlər ki, mən bu məhkəmədə bəraət ala bilərəm. Çünki mən 28 ildir efirə çıxan adamam. Məni insanlar çox yaxşı tanıyırlar, əgər bu məsələdə günahım olsaydı, çıxıb deyərdim ki, mənim də günahım var. Lakin bu məsələdə mənim günahım yoxdur. Mən məhkəmələrin ədalətinə inanıram, bu məsələdən alnıaçıq, üzüağ çıxacağıma inanıram. Üstəlik, o uşağın ailəsinin məndən şikayəti yoxdur. Uşağın məzar daşının qoyulmasına, qırx, il mərasiminin keçirilməsinə də kömək göstərmişəm. Bunlar günahkar olduğum üçün deyil, övladını itirən ailənin yanında olmaq üçün edilən əməllərdir".




# Xüsusi tuneldə çətənə yetişdirənlər tutuldu

**Sabirabad Rayon Polis Şöbəsinin Qaragüney Polis Bölməsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri ilə Kür çayının rayonun Muğan Gəncəli kəndi ərazisindən keçən hissəsinin sahilində narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan əvvəllər məhkum olunmuş Fərrux İmanov saxlanılıb.**

DİN-in Mətbuat xidmətinin Şirvan regional qrupundan "Unikal"a verilən məlumata görə, əraziyə keçirilən baxış zamanı xüsusi aqrotexniki qaydalara qulluq edilərək yetişdirilmiş 53 ədəd çətənə kolu və 8 kiloqramdan artıq marixuana aşkar olunaraq götürülüb.

F.İmanov həmin bitkilərə qulluq edən zaman ətraf ərazilərdən görünməməsi üçün xüsusi tunel hazırlayaq oradan istifadə edib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində həbs-qətimkan tədbiri seçilib.

# Plastik cərrahlarla bağlı şikayətlər yenə artıb



**Azərbaycanda ilin əvvəlindən başlayaraq plastik cərrahiyyə mövzusu gündəmdədir. Hüquq-mühafizə orqanları plastik cərrahlara saxta sertifikat verən bir sıra məmurlara qarşı əməliyyat aparıb.**

Dövlət qurumları plastik cərrahları yenidən qeydiyyata alıb və 42 nəfərə bu sahədə işləmək üçün icazə verilib. Ancaq yenə sosial mediada və mətbuatda plastik cərrahlarla bağlı şikayətlər bitmək bilmir.

Modern.az plastik cərrahlarla bağlı şikayətlərin sayını öyrənmək üçün Səhiyyə Nazirliyinə müraciət edib.

Qurumun Analitik Ekspertiza Mərkəzindən sorğumuza cavab olaraq bildirilib ki, 2025-ci ilin son altı ayında Mərkəzə plastik cərrahiyyə ilə bağlı 12 rəsmi müraciət daxil olub.

Qeyd olunur ki, şikayətlər əsasən blefaroplastika əməliyyatı, həkimin sertifikatının olub-olmaması barədə, rinoplastika, tibbi təhsil olmadan həkim kimi işlə bağlı, otoplastika, lor həkimi olmasına baxmayaraq, saxta sənədlərlə plastik cərrah kimi çalışması və s. olub.

"Bütün bu müraciətlər araşdırılıb və operativ şəkildə plandankənar yoxlamalar açılıb və qanunvericiliyə uyğun müvafiq addımlar atılıb", - Mərkəzdən verilən məlumatda deyilir.

Əlavə olaraq məlumatda qeyd edilib ki, Səhiyyə Nazirliyi yanında Analitik Ekspertiza Mərkəzi tərəfindən vətəndaşların həyat və sağlamlığına real təhlükə yarada biləcək hallarla bağlı təsdiqedici sənədlərlə birgə daxil olan rəsmi müraciətlər əsasında araşdırmalar aparılır. Belə hallarda zərurət yarandıqda qanunvericiliyə uyğun olaraq plandankənar yoxlamalar həyata keçirilir.

# Blogerlər vergiyə necə cəlb olunur?

## Milyonluq reklam gəlirləri, 90 minlik cərimə-ARAŞDIRMA

**Son günlər blogerlər yenidən yüksək reklam qiymətləri ilə gündəmə gəliblər.**

APA ttps://apa.az/-nın əldə etdiyi məlumata görə, məşhur blogerlərin sosial media hesabında reklam qiymətləri paylaşım yerindən asılı olaraq 1 000-5 000 manat arasında dəyişir. Ekspertlər qeyd edirlər ki, Azərbaycanda sosial media reklam bazarının 10 milyon manata yaxın hissəsini ələ keçirib. Bununla belə, Azərbaycanda bloger və influenserlərin illik gəlirlərinin bundan dəfələrlə çox olduğu bildirilir.

**Qanun dəyişdi: blogerlər artıq rəqəmsal platforma təsirçisi kimi tanınır**

Bir müddət əvvəl Prezident İlham Əliyevin imzaladığı sərəncamla "Reklam haqqında" Qanuna edilən dəyişikliklər qüvvəyə minib. Dəyişikliyə əsasən, artıq influenserlər və ya blogerlər də qanunun təsir dairəsinə daxil edilib. Qanunda bloger, influenser və bu istiqamətdə bütün fəaliyyətlər "rəqəmsal platforma təsirçisi" adlandırılıb. Dəyişikliyə görə, hər bir influenser VÖEN sahibi olmalı və hüquqi məlumatlarını qeyd etməlidir. Eyni zamanda influenserə və ya blogerə özü istifadə etmədiyi məhsulu istifadə edirmiş kimi göstərərək reklam etmək qadağan olunur. Qanunu pozanlar üçün cərimələr nəzərdə tutulub. Rəqəmsal platforma təsirçisi tərəfindən "Reklam haqqında" qanunvericiliyin tələblərinin pozulmasına görə vəzifəli şəxslər 750 manatdan 1 250 manatadək, hüquqi şəxslər isə 2500 manatdan 4 000 manatadək məbləğdə cərimə edilir.

Artıq istehlakçı hüququnu pozan blogerlərlə bağlı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciətlər daxil olmağa başlayıb. Agentlikdən bildirilib ki, qanun pozuntusu faktlarla təsdiq edilərsə, bununla bağlı Daxili İşlər Nazirliyinə müraciət olunur və inzibati tədbirlər görülür, o cümlədən cərimə tətbiq edilir.

**Vergi qaydaları hamı üçün eynidir**

Maraqlıdır ki, məsələnin vergi tərəfi ilə bağlı hələlik qeyri-müəyyənlik hökm sürür. Ekspertlər qeyd edirlər ki, vergiyə cəlb edilmədə hər hansı fərqli yanaşma tətbiq edilmir, digər peşə sahibləri kimi blogerlərə də gəlir vergisi hesablanır.

**Vergi eksperti Vəli Əliyev** bildirir ki, sosial şəbəkə üzərindən reklam məlumatları təqdim edən istənilən şəxs reklam xidməti göstərmiş olur. Bu zaman fiziki şəxsdirsə, illik 45 min manata qədər gəlir əldə edirsə,



vergiyə cəlb edilən gəlirin 75 faizindən vergi tutulmur və güzəşt tətbiq edilir. Əgər gəlir 45 min manatdan çox, 200 min manatdan az olarsa, 75 faiz güzəşt tətbiq edilmədən gəlir vergisinə cəlb edilir. Gəliri 200 min manatdan çox olan rəqəmsal məzmun tərtibatçısı isə ƏDV qeydiyyatına alınır, gəlirlərindən ƏDV hesablanır və gəlir vergisi ödənilir. Ekspert əlavə edib ki, Vergi Məcəlləsində peşə üzrə vergitutmanın müəyyən edilməsi məsələsi minimaldır. Yəni bloger və influenserin hansısa müəyyən həcmdə vergi ödəməlidir deyə konkret qeyd yoxdur.

Vergi Məcəlləsinə əsasən, gəlir əldə edən, amma onu bəyan etməyən bloger və ümumilikdə vergi ödəyicilərinin ilk növbədə mənfəətin 20 faizi həcmində vergi öhdəliyi yaranır. Bundan əlavə, cərimə və vergi ödənişinin gecikdirilməsinə görə əlavə faizlər tətbiq edilir.

**Bütün blogerləri vergiyə cəlb etmək mümkündürmü?**

Hazırda açıq qalan suallardan biri bloger və influenserlərin hamısının vergiyə cəlb olunub-olunmamasıdır. Ekspertlər bunun fiziki və texniki baxımdan mümkün, amma prosesin çətin olduğunu deyirlər.

**Vergi sahəsi üzrə ekspert Mehdi Babayev "APA-Economics"ə açıqlamasında bildirib ki, bloger və influenserlərin vergidən yayınma hallarının aşkar edilməsində vergi orqanları müəyyən çətinliklərlə üzləşir. Onların müxtəlif sosial şəbəkə platformalarında fərqli formada fəaliyyət göstərməsi səbəbindən bu fəaliyyətin mahiyyəti, forması və hansı normativ-hüquqi aktların tələblərinə tabe olduğu əvvəlcə tam aydın deyildi: "Bəzi hallarda Dövlət Vergi Xidməti onların fəaliyyətini aşkar etməkdə texniki və təşkilati maneələrlə qarşılaşır. Bu proses vaxt və çoxsaylı əməkdaşın iştirakı tələb edir. Eyni zamanda reklam fəaliyyəti nəticəsində vergiyə cəlb olunmalı əməliyyatların dəqiq müəyyənləşdirilməsi mərhələsində də qeyri-müəyyənliklər yarana bilirdi".**

Ekspert qeyd edib ki, qanunvericiliyə edilmiş son dəyişikliklər bu sahədəki bir çox suallara aydınlıq gətirib. Artıq blogerlərin fəaliyyəti reklam fəaliyyəti çərçivəsində qiymətləndirilir, onların vergiyə cəlb olunma qaydaları, vergi hesablamaları və reklamla bağlı tələb olunan sənədləşmə prosedurları dəqiqləşib.

Mehdi Babayev vurğulayıb ki, blogerlərin fəaliyyətinin aşkar edilməsi hələ də həm fiziki, həm də texniki baxımdan vaxt və zəhmət tələb edir. Bu səbəbdən vergi mədəniyyətinin artırılması üçün maarifləndirmə və təbliğat işlərinə ehtiyac var. Onun sözlərinə görə, blogerlər əsasən fərdi qaydada araşdırılır və vergiyə cəlb edilir, bəzi hallarda bu proses gecikmiş formada həyata keçirilir. Fakt müəyyənləşdirildikdə isə, vergidən yayınan şəxslər əvvəlki dövrlərdəki yayınmalara görə də sanksiya və cərimələrlə üzləşə bilərlər.

**Vergidən yayınma hallarının qarşısını almaq üçün nəzarət mexanizmləri olmalıdır**

Bəzi ekspertlər bildirirlər ki, bu, qismən yeni sahə hesab edilir və gəlirləri sübut etmək çətindir. Bununla bağlı hansısa şəkildə nəzarət mexanizmi qurulmalıdır. "Azərbaycanda adicə mənzil kirayəsini vergiyə cəlb etmək çətin məsələdir. Buna oxşar məsələ isə müğənnilərin vergiyə cəlb edilməsi idi. Amma sonradan səsləndirilən rəqəmlərin reallığı əks etdirmədiyi ortaya çıxdı" - deyə vurğulanır.

**Vergi eksperti Vəli Əliyev** isə bu məsələyə fərqli yanaşır. O, hesab edir ki, bank hesablarına köçürmələr üzərindən aidiyyəti dövlət orqanı şəxsin gəlir və xərclərini müəyyən edə bilər. Bu, o cümlədən bloger və influenserlərə də aiddir. Hətta "ƏDV geri al" layihəsi ilə vətəndaşın nəyə və nə qədər xərclədiyini, ümumilikdə xərclərini və bu vasitə ilə də gəlirlərini müəyyən etmək mümkündür. Bunun üçün müxtəlif üsullar istifadə oluna bilər.

**İqtisadçıekspert Əkrəm Həsənov** isə bildirir ki, bunun üçün vergi qanunvericiliyində hər hansı dəyişikliyə ehtiyac yoxdur. Hər kəs gəlirini bəyan etməli və gəlir vergisi ödəməlidir. Sadəcə, harada ki, vergi orqanı buna nəzarət edə bilmir - təkcə blogerlər deyil, digər sahələrdə də, məsələn, müğənnilər - onlar da vergi ödəmir. Harada ki, ödənişlə bağlı fakt əldə edilirsə, orada ödəniş edilir. O qeyd edib ki, xaricdə də eyni vəziyyətdir. Buna adi qaydada nəzarət etmək mümkün deyil, amma nəzarət mexanizmləri var. Bunlardan ən əsası ümumi tətbiq edilən gəlir və xərc bəyannaməsidir. Belə bir mexanizm tətbiq edilsəydi, vergi orqanı üçün belə vergi ödəyicilərini müəyyən etmək daha rahat olardı.

**DVX: Elektron platformalara nəzarət mexanizmləri tətbiq edilir**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən isə "APA ttps://apa.az/-Economics"in sorğusuna cavab olaraq məsələyə müəyyən qədər aydınlıq gətirilib. Qurum influenserlərin ayrıca vergi ödəyicisi kateqoriyası kimi tanınmadığını, gəlir əldə edən fiziki şəxslər və ya fərdi sahibkarlar kimi vergi ödəyicisi hesab olunduqlarını bildirib. Qeyd edilib ki, "Reklam haqqında" qanunvericiliyə edilən son dəyişikliklərdə "rəqəmsal platforma təsirçisi" anlayışı gündəmə gəlib ki, bu da blogerlik və influenserlik fəaliyyətini əks etdirir. Bu fəaliyyət növü ilə məşğul olanlar hər hansı bir məhsulu və ya xidmət sahəsini reklam edirlərsə, bu reklamdan əldə etdikləri gəlirlər üzrə gəlir vergisi öhdəliyi daşıyırlar. Məhsulun reklam və ya tövsiyə xarakterli olması bloger və influenserin bu fəaliyyət üzrə davamiyyətinə görə təhlil edilə bilər.

Vurğulanıb ki, sosial media üzərindən gəlir əldə edən fiziki şəxslər vergi orqanlarında uçota alınmaqla VÖEN əldə etməli, fəaliyyəti təsdiqedici sənədlər əsasında rəsmiləşdirməli və əldə olunan gəlirlər üzrə vergi orqanına bəyannamə təqdim etməlidirlər.

**Vergidən yayınan blogerlərə 50% maliyyə sanksiyası tətbiq ediləcək**

Dövlət Vergi Xidməti xüsusilə qeyd edib ki, elektron platformalarla bağlı fəaliyyətlər vergi nəzarətinin əhatə dairəsinə daxildir və bu sahədə müvafiq nəzarət mexanizmləri tətbiq edilir: "Vergi Məcəlləsinə əsasən, hesabatda göstərilən vergi məbləği hesabatda göstərilməli olan məbləğə nisbətən azaldılırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılırsa, vergi ödəyicisinə, həmin Məcəllənin 58.1-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, azaldılmış və ya yayındırılmış məbləğin 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq olunur".

**Məşhur "tiktoker" "şir"lərə görə 90 min manat cərimələnib**

Bununla belə, Xidmət indiyə qədər vergidən yayınan və cərimə edilən bloger və influenserlərin olub-olmaması ilə bağlı məsələyə aydınlıq gətirməyib. "APA ttps://apa.az/-Economics"in əldə etdiyi məlumata görə, bir müddət əvvəl "TikTok"da məhşur blogerlərdən birinə 80-90 min manat məbləğində cərimə hesablanıb. Məlum olub ki, sözügedən bloger "TikTok" səhifəsində "şir"ləri daha ucuz qiymətə satmaqla gəlirlərini vergidən yayındırmağa çalışıb. Vergi orqanı isə bunu müəyyən edib və şəxsə qarşı cinayət işi açılıb.

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

**Avqustun 11-də Qarabağa “Böyük Qayıdış”ın yeni səhifəsi açıldı. Bu dəfə Xocalı rayonunun Xanyurdu kəndi növbəti dəfə sakinlərinə qucaq açdı. İndiki mərhələdə bu kəndə 19 ailə (62 nəfər) köçürüldü. Beləliklə, Xanyurduna köçürülən ailələrin sayı 52-yə, sakinlərin ümumi sayı isə 184 nəfərə çatdı.**






# Xocalıda Xanyurduya qayıdış

## “Kəndimiz işğal ediləndə düşmənə ciddi müqavimət göstərdik, amma...”



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, köç prosesi çərçivəsində ailələrə tam təmir olunmuş mənzillərin açarları təqdim edilib.

Tədbirdə çıxış edən Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsin icraçı direktorunun müavini **Mahmud Əfəndiyev** bildirib ki, işğaldan sonra təmir və bərpa aparılan kənddə sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Elektrik, qaz, içməli su, rabitə xətləri çəkilib, yol infrastrukturu yenilənib. Yaxın vaxtlarda məktəb binası, uşaq bağçası, tibb məntəqəsi və digər sosial obyektlər istifadəyə veriləcək. Köçürülmə zamanı sakinlər doğma yurdlarına qayıtdıqları üçün dövlət rəhbərliyinə minnətdarlıq ifadə ediblər. “İllərdir həsrətini çəkdiyimiz torpaqlara qovuşmaq bizim üçün böyük xoşbəxtlikdir. Burada bizim üçün hər bir şərait yaradılıb,” - deyə keçmiş məcburi köçkünlər bildiriblər

Xanyurdu kənd sakini Məhəbbət Cavadov təkrar məskunlaşdıqları kəndi adına layiq qaydada inkişaf etdirəcəklərini söyləyib: “Dövlətimiz o zaman indiki qədər qüdrətli olsaydı, uzun illər məcburi köçkün həyatı yaşamazdıq. Kəndimiz işğal ediləndə düşmənə ciddi müqavimət göstərdik, amma gücümüz yetərli olmadığı üçün geri çəkildik. Bu müddət ərzində yenidən kəndimizə dönəcəyimizə inamımızı heç vaxt itirmədik. Şükür, çətin günlər artıq geridə qalıb. İndi kəndimizə qayıdırıq, öz ocağımızı yandırıb, yuvamıza yığılırıq. Kəndimizi adına layiq şəkildə - Xan yurdu kimi inkişaf etdirəcəyik”.

Məlumat üçün bildirək ki, 2025-ci ilin köç planına əsasən, Xocalı rayonunun daha beş kəndinə - Daşbulaq, Badara, Seyidbəyli, Şuşakənd və Xanabad kəndlərinə sakinlərin geridönüşü təmin ediləcək. 2026-cı il üçün isə Xanyurdu kəndində 93 fərdi evin təmir və bərpası planlaşdırılıb. Ümumilikdə kənd yüzlərlə ailənin yenidən məskunlaşması üçün tam hazırlığa gətirilir, mühüm infrastruktur investisiyaları reallaşır.

Qeyd edək ki, “Böyük Qayıdış” proqramı çərçivəsində bu ilin ilk yarısında dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına 1 milyard 552,4 milyon manat vəsait ayrılıb.

Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb. Bildirilib ki, bu vəsaitin 1 milyard 353,6 milyon manatı infrastruktur layihələrinə sərf olunub. İnfrastruktur layihələri çərçivəsində avtomobil yollarının layihələndirilməsi və tikintisinə 1 milyard 58,2 milyon manat, yeni yaşayış komplekslərinin tikintisinə 239,5 milyon manat, su xətləri, kollektorlar və qurğuların qurulmasına isə 33,7 milyon manat ayrılıb. Bundan əlavə, sənaye parkları və infrastruktura 20,5 milyon manat, elektrik təchizatı işlərinə isə 1,7 milyon manat vəsait yönəldilib. Sosial layihələrə, o cümlədən təhsil, səhiyyə, mədəniyyət və idman sahələrinə 182 milyon manat sərf olunub. Həmçinin işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işlərinə 16,8 milyon manat vəsait ayrıldığı bildirilib.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 50 mindən çox insan yaşayır.

2020-ci ildən etibarən Qarabağ və Şərqi Zəngəzurda görülən bərpa-quruculuq işlərinə ümumilikdə 22 milyard manata yaxın vəsait yönəldilib, yalnız 2025-ci il üçün bu məbləğ 4 milyard manat təşkil edir. 2026-cı ilin sonunadək Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində 140 min insanın Qarabağ və Şərqi Zəngəzura köçürülməsi nəzərdə tutulur.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI**



## 7 min əhalinin yolu təzələnir

**Lənkəran rayonunun Hirkan-Daştatük-Biləsər avtomobil yolunun təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalanıb.**

**Sərəncamda deyilir:**

Yeddi min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Hirkan-Daştatük-Biləsər avtomobil yolunun dağılmış hissəsinin bərpası və istinad divarlarının tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Qarabağa sərmayə qoyuluşu artacaq

## İqtisadçıya görə, 907-ci düzəlişin ləğv edilməsi faktiki olaraq Qarabağ və Şərqi Zəngəzura daha çox sərmayənin cəlb olunacağından xəbər verir

**Avqustun 8-də Prezident İlham Əliyev ABŞ-də səfərdə olub. Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu” imzalanıb.**




Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti altı ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır.

Əlaqələrin yeni mərhələsində ABŞ-nin Qarabağ və Şərqi Zəngəzura sərmayə yatıracağı barədə müzakirələr yaranıb.

Modern.az-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü **Vüqar Bayramov** bildirib ki, ABŞ ilə Azərbaycan arasında strateji tərəfdaşlığın qurulması və münasibətlərin dərinləşməsi, eləcə də 907-ci düzəlişin ləğv edilməsi faktiki olaraq Qarabağ və Şərqi Zəngəzura daha çox sərmayənin cəlb olunacağından xəbər verir:

“ABŞ şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə daha fəal şəkildə iştirak edə bilərlər. Sərmayə qoyuluşları ilə faktiki olaraq Qarabağın iqtisadiyyatının formalaşmasına töhfə verə bilərlər. Nəzərə alsaq ki, Azərbaycan Prezidentinin 2025 və növbəti illər üçün müəyyənləşdirdiyi hədəflər sırasında xarici investisyaların cəlb edilməsi əsas prioritetlərdəndir. Bu baxımdan ABŞ-dən daha çox sərmayənin cəlb edlməsi, həm də texnologiya və innovasiyaların cəlbi baxımdan vacibdir”.

Deputat qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurun böyük iqtisadi potensialı var: “İlkin qiymətləndirmələrə görə bu, Azərbaycan iqtisadiyyatına bütövlükdə növbəti illərdə 15 milyard manata qədər yeni dəyər qata bilər. Bu dəyərin formalaşması üçün xarici sərmayənin cəlb edilməsi, xüsusən də inkişaf etmiş ölkələrdən investisiyaların cəlb edilməsi çox vacibdir. Ona görə də ABŞ-dən daha çox sərmayənin cəlbi, bütövlükdə Şərqi Zəngəzur və Qarabağda Amerika şirkətlərinin daha fəal formada iştirakı mümkün olacaq”.

YENİ MÜSAVAT
Son səhifə
N 141 (8751) 13 avqust 2025

# Robot tozsoran qadını vanna otağına kilidlədi



**Rusiyada robot-tozsoran qadını təsadüfən vanna otağına kilidləyib. Oxu.az-ın xəbərinə görə, bu barədə REN TV-yə "SpasRezerv" axtarış-xilasetmə dəstəsinin Mətbuat Xidmətindən məlumat verilib.**

Qeyd olunub ki, iş zamanı tozsoran dəhlizdəki stula dəyib. Stul aşaraq hamam otağının girişini bağlayıb. Nəticədə qadın içəridə qapalı qalıb. Evdə isə qadından başqa heç kim olmayıb. Qadın qapının niyə açılmadığını başa düşə bilməyib və təşviş keçirib, səhhəti qəfil pisləşib. Bundan sonra o, xilasedicilәri çağırıb. Xilasedicilər havalandırma üçün açıq qalan pəncərədən içəri daxil olublar.

## Dünyada ət və südə allergiya xəstəliyi yaranır



**Əgər ət yedikdən bir neçə saat sonra bədəniniz qaşınmağa, şişməyə və ya qəfil ağrımağa başlayırsa, problem qida zəhərlənməsi deyil, gənə dişləməsi nəticəsində yaranan gec başlayan ət və süd allergiyası ola bilər. Buna Alpha-gal sindromu deyilir.**

Ət və süd məhsullarına allergiyaya səbəb olan xəstəlik bütün dünyada yayılmaqdadır.

Alimlər hesab edirlər ki, bu sirli xəstəlik xüsusən ABŞ-də sürətlə yayılır. Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinə (CDC) görə, ölkədə təxminən 450,000 insan sindromdan təsirlənə bilər.

Alpha-gal sindromu adını "qalaktoza-alfa-1,3-qalaktoza" adlı şəkər molekulundan alır. Bu molekul təbii olaraq inək, donuz, dovşan və maral kimi məməlilərin toxumalarında olur, lakin insanda yoxdur. Bu şəkəri ehtiva edən gənə tüpürcəyi qan dövranına daxil olduqda, immunitet sistemi onu bir təhlükə kimi tanıyır və antikor istehsal etməyə başlayır. Ət və ya süd məhsulları kimi alfa-qal ehtiva edən qidalar sonradan qəbul edildikdə, immunitet sistemi səhvən bu molekula allergik reaksiya verir.

Mütəxəssislər tez-tez bu vəziyyəti "qırmızı ət allergiyası" kimi təsvir etsələr də, Alfa-qal sindromu yalnız ətlə məhdudlaşmır: o, həmçinin süd, pendir, jelatin, müəyyən dərmanlar (məsələn, heparin) və hətta şəxsi qulluq məhsulları üçün allergiyaya səbəb ola bilər.

## Bu rəng stresi 28 faiz azaldır



**"Journal of Environmental Psychology" jurnalında dərc olunan son tədqiqatın nəticələrinə əsasən, göy rəng - xüsusilə də onun soyuq tonlu çalarları - insanın intellektual fəaliyyət zamanı yaşadığı stresi təxminən 28% azaldır.**

Milli.az xəbər verir ki, nevrofizioloqların apardığı bu araşdırma göstərib ki, göy rəng diqqət və konsentrasiyanı artıran neyromediatorların ifrazını stimullaşdırır. Bununla yanaşı, Böyük Britaniyanın Kolumbiya Universitetində aparılan digər bir elmi araşdırma isə mavi rəngin insan beyninin yaradıcılığa cavabdeh olan alın nahiyələrini aktivləşdirdiyini sübut edib. Tədqiqat göstərib ki, göy çalarlı mühitdə işləyən insanlar 33% daha çox yaradıcı və innovativ ideyalar irəli sürürlər.

Mövzu ilə bağlı maraqlı bir tarixi fakt da diqqət çəkir. "Apple" şirkətinin həmtəsisçisi Steve Jobs, ilk Mac kompüteri üzərində işlədiyi dövrdə ofisini göy rəngdə dizayn edib. O, bu rənglərin ona "gələcəyi daha aydın görməyə kömək etdiyini" demişdi.

Mütəxəssislər bildirir ki, göy rəngdən düzgün istifadə etmək vacibdir. Tamamilə bu rənglə dizayn edilmiş məkanlar uzun müddətli istifadədə psixoloji diskomfort yarada bilər. Ən effektiv yanaşma - fərqli göy aksentlərdən istifadə etməkdir.

## Bu məhsullar xərçəng riskini azaldır

**Bəzi məhsullar hüceyrələri zədələnmədən qorumağa və xərçəngin inkişaf riskini azaltmağa kömək edir". Bu barədə rusiyalı dietoloq Dmitri Semiryadov KP.ru-ya müsahibəsində danışıb. O, sağlamlığı qorumaq və xərçəngə səbəb olan hüceyrə mutasiyaları ehtimalını azaltmaq üçün hansı məhsulların rasiona daxil edilməli olduğunu açıqlayıb.**

"Anlamaq vacibdir ki, heç bir qida məhsulu xərçəngin qarşısını 100% ala bilməz və xüsusən də müalicə edə bilməz. Lakin potensial olaraq xərçəngin qarşısını almağa kömək edə biləcək bəzi məhsullar var. Şişin meydana çıxma prosesi bir çox hallarda DNT hüceyrələrinin zədələnməsi ilə bağlıdır ki, onlar düzgün bölünmələrinə imkan verən məlumatları özlərində saxlayırlar", - deyə Dmitri Semiryadov bildirib.

Mütəxəssis qeyd edib ki, mədə və prostat xərçəngi riskini azaldan beta-karotinli yerkökü, lifləzəngin lobya və giləmeyvələr, xüsusən də qaragilə, moruq və qarağat faydalı hesab olunurlar, onların tərkibində güclü antioksidant təsiri olan çoxlu antosianlar var.

Siyahıda həmçinin sarımsaq və digər soğan növləri də yer alır. Onların müntəzəm istifadəsi isə mədə və prostat xərçəngi riskinin azalması ilə əlaqələndirilir. Bununla belə, dietoloq xatırladıb ki, mədə-bağırsaq xəstəlikləri zamanı bu məhsullar zərərli ola bilər, ona görə də həkimə müraciət etmək vacibdir.



## Bunları bilirsinizmi?

* Pişiklər 100, itlər isə 10 dəyişik səs çıxarda bilər.
* Donald Duck cizgi filmləri Finlandiyada qadağan edilmişdir. Səbəbi isə qəhrəmanların don geyinməsidir.
* Şokoladın itləri öldürdüyü məlumatı doğrudur. Bu, onların ürəyinə və sinir sisteminə zərər verir. Yarım kiloya qədər şokolad kiçik bir iti öldürə bilər.
* Dünyada insan başına düşən qarışqa sayı 1 milyondur.
* Hər gün doğulan uşaqların orta hesabla 12 faizi səhv ana-ataya aparılır.
* Atlar bir aya qədər ayaq üstə qala bilər.
* Hər bir insanın dilinin izi də barmaq izi kimi fərqlidir.
* Dünyanın ən böyük heyvanı mavi balinadır. Eyni zamanda heyvanlar aləminin ən sürətli böyüyən heyvanıdır. Kilosu 22 ayda 26 tona qədər çata bilir.
* Bir inək həyatı boyunca təxminən 200.000 stəkan süd istehsal edir.

## İnsanlar 80% hallarda bu səbəblərdən ölür



**Ölüm hallarının 80 faizinin səbəbi sosial xəstəliklərdən qaynaqlanır. "Medicina" xəbər verir ki, Moskva vilayətinin Səhiyyə Nazirliyinin ümumi tibbi praktika üzrə baş mütəxəssisi Roman Qorenkovun sözlərinə görə, sosialyönlü xəstəliklərə İİV infeksiyası, vərəm, şəkərli diabet, psixi pozğunluqlar, onkopatologiyalar və yüksək qan təzyiqi aid edilir.**

"Onların inkişafı üçün əsas risk faktorları hipertoniya, yüksək ümumi xolesterin və siqaretdir. Yalnız bu üç amili aradan qaldırmaqla xroniki qeyri-infeksion və sosial əhəmiyyətli xəstəliklərin ağır fəsadlarının qarşısını almaq olar".

Bundan əvvəl Çin alimləri yuxu pozğunluğunun 170-dən çox xəstəliyin inkişaf riskini artıra biləcəyini müəyyən etdilər.

Beləliklə, qeyri-sabit yuxu 2-ci tip diabet, Parkinson xəstəliyi, qaraciyər sirozu, qanqren və kəskin böyrək zədələnməsi kimi vəziyyətlərin riskini iki dəfədən çox artıra bilər. Məsələn, saat 00:30-dan sonra yuxuya gedən insanlarda sirsoz xəstəliyinə tutulma riski 23:00 radələrində yatanlarla müqayisədə 2,5 dəfə çox idi.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500